

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# "Azərbaycanın əsas gündəliyi yaşıl enerjidir"




11

SƏS
№ 092 (7017)
24 may 2024-cü il.
Qiyməti 60 qəpik

## Azərbaycan-Tacikistan: dostluq münasibətlərində

# YENİ SƏHİFƏ!



2

**Prezident İlham Əliyev: "İkitərəfli gündəliklə, həm də beynəlxalq, regional problemlərlə bağlı bir çox mühüm məsələlər üzrə məsləhətləşmələri və müzakirələri davam etdirdik"**

# Sülhə gedən YOL



5

## Ekoloji təmiz məhsul nədir?



15

## Gürcüstan Qərbə qarşı



6

## Sənətkar ömrü



8

## Xaricdəki "söyüş müxalifəti" arasında qarşıdurma yaranıb



9

## Virtual dünya real dünyaya qalib gələrsə...



10

# Azərbaycan-Tacikistan: dostluq münasibətlərində YENİ SƏHİFƏ!

## Prezident İlham Əliyev: "İkitərəfli gündəliklə, həm də beynəlxalq, regional problemlərlə bağlı bir çox mühüm məsələlər üzrə məsləhətləşmələri və müzakirələri davam etdirdik"

Dünya dövlətləri ilə münasibətlərin möhkəmləndirilməsi, qarşılıqlı əməkdaşlıq Azərbaycan xarici siyasətinin əsas prioritetlərindəndir. Son illərdə bir çox dünya dövlətləri arasında əlaqələr bütün sahələrdə intensiv xarakter alıb və dövrün tələblərinə, baş verən proseslərə uyğun olaraq sürətlə inkişaf etdirilir. Bu dinamika Azərbaycanın xarici siyasətində açıq şəkildə hiss olunur. Qeyd edək ki, Prezident İlham Əliyevin son 2-3 il ərzində Mərkəzi Asiya, o cümlədən regionun türkdilli ölkələrinə ardıcıl səfərləri və həmin dövlətlərin başçılarının Azərbaycana səfərləri əlaqələrimizin genişlənməsini, dərinləşməsini və strateji xarakter almasını şərtləndirir. Bu baxımdan, Tacikistanla da Azərbaycan arasında qarşılıqlı anlaşma mühiti mövcuddur. Xalqlarımızın əsrlərə söykənən tarixi, mədəni, dini bağlılığına əsaslanan bu münasibətlər xüsusilə son dövrlərdə dövlətlərimizin başçılarının siyasi iradəsi ilə daha da genişlənərək inkişaf edir. Tacikistan Prezidenti Emoməli Rəhmonun Azərbaycana səfəri dövlətlərin etibarlı dost və tərəfdaş olduqlarını bir daha göstərir. Hər iki dövlətin aktual regional və beynəlxalq məsələlərdə mövqeləri eynidir.



### DÖVLƏTLƏR ARASINDA ƏMƏKDAŞLIĞI ARTIRAN SƏNƏDLƏRİN İMZALANMASI

Səfər çərçivəsində mayın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonun iştirakı ilə Azərbaycan-Tacikistan sənədlərinin imzalanması mərasimi olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon "Azərbaycan Respublikası ilə Tacikistan Respublikası arasında strateji tərəfdaşlıq haqqında Bəyannamə"ni imzalayıblar. Eyni zamanda "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə Tacikistan Respublikasının Sənaye və Yeni



Texnologiyalar Nazirliyi arasında Anlaşma Memorandumu", "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi ilə Tacikistan Respublikası Hökuməti yanında İcra Xidməti arasında məhkəmə aktlarının və digər orqanların aktlarının icrası sahəsində əməkdaşlıq haqqında Memorandum", "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə Tacikistan Respublikası Hökuməti yanında Ətraf Mühitin Mühafizəsi Komitəsi arasında ətraf mühitin mühafizəsi sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu", "Azərbaycan Respublikası Hökuməti ilə Tacikistan Respublikası Hökuməti arasında sənaye mülkiyyətinin mühafizəsi sahəsində əməkdaşlıq haqqında Saziş"i və "Azərbaycan Respublikası Hökuməti ilə Tacikistan Respublikası Hökuməti arasında rəqəmsal ticarət sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu" imzalanıbdır. Eyni zamanda "Azərbaycan Respublikası Hökuməti ilə Tacikistan Respublikası Hökuməti arasında miqrasiya sahəsində əməkdaşlığa dair Saziş", "Azərbaycan Respublikası Hökuməti ilə Tacikistan Respublikası Hökuməti arasında informasiyanın texniki mühafizəsi sahəsində əməkdaşlıq haqqında Saziş" imzalanıbdır.

### TARİXİ BAĞLAR

Azərbaycanın Mərkəzi Asiya dövlətləri arasında Tacikistanla münasibətləri xüsusi əhəmiyyətə malikdir. İki ölkə arasında diplomatik münasibətlər 1992-ci il mayın 29-da qurulub. 2007-ci ildə Azərbaycanın Tacikistanda, bir il sonra isə Tacikistanın Azərbaycanda səfirliyi fəaliyyətə başlayıb.

Ölkələrimizi tarixi dostluq əlaqələri, siyasi, humanitar və digər sahələrdə münasibətlər də birləşdirir. Azərbaycan və tacik xalqları arasında tarixi, mədəni və dini bağlılıqlar iki ölkə arasındakı əlaqələrin əsasını təşkil edir. İki ölkə arasında ümumilikdə 70-dən çox sənəd, o cümlədən 2007-ci il martın 15-də "Azərbaycan Respublikası və Tacikistan Respublikası arasında dostluq və əməkdaşlıq haqqında Müqavilə" imzalanıb. Xüsusi vurğulamaq lazımdır ki, dövlətimizin başçısının ötən il Tacikistana dövlət səfəri çərçivəsində müxtəlif sahələrdə əməkdaşlığın dərinləşdirilməsinə dair 14 sənəd imzalanıb.

İki ölkə arasında elm və təhsil sahəsində münasibətlər də mühüm yer tutur. 2014-cü ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə Tacikistan Milli Universitetinin Fəxri Doktoru diplomu təqdim olunub. 2018-ci il avqustun 11-də Azərbaycanda rəsmi səfərdə olan Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmona ADA Universitetinin Fəxri Doktoru diplomu təqdim edilib. Hazırda Azərbaycanda 40-dək tacikistanlı tələbə təhsil alır.

Azərbaycan-Tacikistan mədəni əlaqələri də məhsuldarlığı ilə seçilir. Ölkələrimiz arasında qarşılıqlı mədəniyyət günləri və kino həftəsi keçirilib. Belə ki, 2007-ci il dekabrın 18-22-də Azərbaycanda Tacikistan Mədəniyyət Günləri, bir il sonra noyabrın 9-12-də isə Tacikistanda Azərbaycan Mədəniyyət Günləri keçirilib. 2015-ci il martın 9-12-də Bakıda Tacikistan kinosu günləri baş tutub. Mayın 20-də isə Bakıda, Heydər Əliyev Mərkəzində Azərbaycan Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Tacikistan Mədəniyyət Günlərinin açılışı olub. Paytaxtla yanaşı, Gəncədə də keçirilən mədəniyyət günləri çərçivəsində Bakıda Tacik Kino Günləri də təşkil olunub.

*Ardı Səh. 3*

# Azərbaycan-Tacikistan: dostluq münasibətlərində

# YENİ SƏHİFƏ!

## Prezident İlham Əliyev: "İkitərəfli gündəliklə, həm də beynəlxalq, regional problemlərlə bağlı bir çox mühüm məsələlər üzrə məsləhətləşmələri və müzakirələri davam etdirdik"

Əvvəli Səh. 2

Düşənbədə azərbaycanlı heykəltaraşlar Fuad Əbdürrəhmanovun (Rudəkinin heykəli, 1964-cü il) və Ömər Eldarovun (Sədrəddin Ayinin heykəli, 1978-ci il və İbn Sinanın heykəli, 1980-ci il) əsərləri mövcuddur. 2022-ci ildən əvvəl Bakı və Düşənbə şəhərləri arasında Qardaşlaşma haqqında memorandum imzalanıb. Bundan başqa, Xocənd şəhəri və Gəncə qardaşlaşmış şəhərlərdir.

### ”YÜKSƏK SƏVİYYƏLİ TƏMASLAR MÜNTƏZƏM XARAKTER DAŞIYIR”

Ölkələrimiz arasında əlaqələrin inkişafında Azərbaycan Prezidenti İlham Əliyevin və Tacikistan Prezidenti Emoməli Rəhmonun şəxsi dostluq münasibətləri mühüm rol oynayır. Səmimi dostluq münasibətləri dövlət başçılarının qarşılıqlı səfərlərinin intensivliyində və məhsuldarlığında da özünü göstərir. Tacikistan Prezidentinin Azərbaycana bu dövlət səfəri ölkələrimiz arasında münasibətlərin inkişafında yeni səhifə açacaq. Səfərin məqsədi ölkələrimiz arasında yüksək səviyyədə olan əlaqələrin daha da inkişafına və qarşılıqlı maraq doğuran sahələrdə əməkdaşlığın gücləndirilməsinə töhfə verməkdir. ”Görüşlərimiz müntəzəm xarakter daşıyır. Biz Tacikistanda, Azərbaycanda tez-tez görüşürük. Mən ötən il bir neçə dəfə ölkənizə səfər etmişəm, həmçinin Sizin dəvətinizlə Mərkəzi Asiya Dövlət Başçılarının Zirvə toplantısında iştirak etmişəm. Siz, həmçinin ötən il Mərkəzi Asiya ölkələrinin və Azərbaycanın Zirvə toplantısı çərçivəsində ölkəmizdə səfərdə oldunuz. Beləliklə, yüksək səviyyəli təmaslar müntəzəm xarakter daşıyır və bu gün biz Sizinlə həm ikitərəfli gündəliklə, həm də beynəlxalq, regional problemlərlə









bağlı bir çox mühüm məsələlər üzrə məsləhətləşmələri və müzakirələri davam etdirdik.” Bu fikirləri mayın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon ilə geniş tərkibdə görüşü zamanı bildirib.

Dövlət başçımız diqqətə çatdırıb ki, bizim hədəfimiz bütün istiqamətlər üzrə fəal qarşılıqlı fəaliyyətdir: ”Bildiyiniz kimi, Sizin səfərinizdən əvvəl biznes-forum olub. Tacikistanın Azərbaycanda Mədəniyyət Günləri keçirilir. Bütün bunlar münasibətlərimizi konkret məzmunla zənginləşdirir. İqtisadi xarakterli bir neçə sənəd imzalanıb”.

### ”TRANSXƏZƏR NƏQLİYYAT DƏHLİZİ AVROPA REGİONU VƏ MƏRKƏZİ ASİYA REGİONU ÜÇÜN GETDİKCƏ DAHA ÇOX ƏHƏMİYYƏT KƏSB EDİR”

”Təbii ki, bizim müzakirə etdiyimiz mövzulardan biri də Tacikistanın və Azərbaycanın nəqliyyat-logistika infrastrukturunun yeni imkanlarının nəzərə alınması ilə nəqliyyat sektorunda əməkdaşlıqdır” - deyə Azərbaycan Prezidenti bildirib: ”Hesab edirəm ki, bu istiqamətdə səylərimizi birləşdirmək, addımlarımızı daha sıx əlaqələndirmək faydalı olacaq. Çünki Transxəzər nəqliyyat dəhlizi Avropa regionu və Mərkəzi Asiya regionu üçün getdikcə daha çox əhəmiyyət kəsb edir”.

Məlumdur ki, Vətən müharibəsindən sonra Azərbaycanın nəqliyyat-logistika imkanlarının genişlənməsi, Zəngəzur dəhlizinin reallaşdırılması məsələsi ölkəmizi Şərqlə Qərb arasında mühüm nəqliyyat qovşağına çevirib. Təsadüfi deyil ki, bu gün Mərkəzi Asiya ölkələrindən, bir qədər də uzağa getsək, Çindən Avropaya gedən ən qısa və təhlükəsiz tranzit daşımalar məhz ölkəmizin ərazisindən həyata keçirilir, bu da Azərbaycana marağı getdikcə artırır. Dünyada cərəyan edən son hadisələr fonunda Azərbaycanın da üzərində yerləşdiyi Orta Dəhlizin əhəmiyyəti artmaqdadır. Dövlətimizin başçısının uzaqgörən siyasətinin nəticəsi olaraq Azərbaycanda müasir nəqliyyat-logistika infrastrukturu yaradılıb və ölkəmiz beynəlxalq nəqliyyat şəbəkələrinə inteqrasiya olunub. Azərbaycan reallaşdırdığı nəhəng infrastruktur layihələri ilə Avropa ilə Asiya arasında vazkeçilməz nəqliyyat qovşağına və tranzit mərkəzə çevrilməkdədir.

Azərbaycan Prezidenti ”Azərbaycan isə Avropa ilə Asiyanın qovuşuğunda yerləşən birləşdirici ölkə kimi özünün nəqliyyat infrastrukturu ilə, əlbəttə ki, bu məsələdə mühüm rol oynayır”, - deyərək gündəliyimizin kifayət qədər geniş olduğunu bildirib: ”Təkcə nümayəndə heyətlərinin tərkibi bizim hansı istiqamətlər üzrə fəal qarşılıqlı fəaliyyət göstərdiyimizdən xəbər verir. Əminəm ki, nəticələr də çox yaxşı olacaq və səfər faydalı, həmçinin xoş keçəcək”.

Təbii ki, Tacikistan Prezidentinin Azərbaycana bugünkü səfəri və keçirilən görüşlər ölkələr arasında əməkdaşlığı yeni inkişaf səviyyəsinə yüksəldəcək. Azərbaycan Tacikistanın etibarlı dostu və tərəfdaşıdır. Ölkələrimizi zamanın sınağından çıxmış münasibətlər birləşdirir. Bu gün əldə edilən razılaşmalar qardaş xalqların dərin maraqlarına cavab verəcək və Tacikistan-Azərbaycan münasibətlərinin möhkəm təməlinə çevriləcəkdir.

İki ölkə arasında münasibətlərin inkişafı üçün böyük potensial var və qarşılıqlı səfərlər əməkdaşlığın sürətlə genişləndirilməsi baxımından mühüm imkanlar yaradır. Tacikistan Prezidenti Emoməli Rəhmonun Azərbaycana dövlət səfəri də ölkələrimiz arasında əməkdaşlığın dərinləşdirilməsinə yeni töhfələr verəcək.

***Nəzakət ƏLƏDDİNQIZI***



# Azərbaycan platformasından yaşıl ideyalara baxış

## Prezident İlham Əliyev: "Yaşıl dünyaya doğru əlavə və davamlı olan konkret addımlar ata bilsək, bu, ən vacib miras olacaq"

***Həmrəylik və əməkdaşlıq platforması olan COP29-un Azərbaycanda keçirilməsi 2024-cü ilin ən mühüm hadisəsidir. Ölkənin yaşıl iqtisadiyyata keçid strategiyasının məntiqi davamı olan COP29 Azərbaycanın gündəliyinin yaşıl enerji ilə bağlı olmasını bir daha sərgiləyəcək. Azərbaycan platformasından COP29 çərçivəsində dünya miqyasındakı proseslərə, eləcə lə iqlim, həm digər yaşıl ideyalara nəzər salınacaqdır. Yaşıl enerjinin inkişafı və yaşıl enerjinin dünya bazarlarına çıxışı Azərbaycanın enerji siyasətinin prioritetiləri sırasındadır. Bildiyimiz kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 26-da Almaniyaya rəsmi səfəri çərçivəsində dövlətlərarası ikitərəfli münasibətlər və regional təhlükəsizlik məsələləri, o cümlədən COP29 ilə bağlı hazırlıq işləri müzakirə edilmişdir. Dövlət başçımızın bu dəfəki səfəri əsasən, iqlim siyasəti çərçivəsində idi. Səfər çərçivəsində dövlətimizin başçısı "15-ci Petersberq İqlim Dialoqu"nun Yüksək Səviyyəli Seqmentində iştirakı etmişdir.***

Qeyd edək ki, Azərbaycan Avropada ən vacib siyasi-iqtisadi tərəfdaşlarından biri olan Almaniya ilə əlaqələrin inkişafına mühüm önəm verir.

Müasir dövrdə dünya ölkələri ilə sıx əməkdaşlıq edən etibarlı tərəfdaş olan Azərbaycan Almaniya ilə də müxtəlif sahələri əhatə edən əməkdaşlıq əlaqələrinə malikdir. İki ölkə arasındakı münasibətlərdə uğurlu səhifələr açılıb və bu gələcək əməkdaşlığın möhkəmləndirilməsi baxımından böyük əhəmiyyət daşıyır. Azərbaycanla Almaniya arasında müxtəlif sahələrdə olan əməkdaşlıq, xüsusilə də, Prezident İlham Əliyevin Almaniyaya işgüzar səfərləri iki ölkə arasında münasibətlərin daha da gücləndirilməsi və əməkdaşlığın genişləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Azərbaycan Prezidenti İlham Əliyevin ötən ay Almaniyaya işgüzar səfəri əlaqələrin davamlığının göstəricisidir. İki ölkə arasında enerji sahəsində də əməkdaşlıq yüksələn xətlə inkişaf edir. Yaşıl enerji və hidrogen enerjisi sahələrində əməkdaşlıq üçün regionda böyük potensial mövcuddur və alman şirkətləri də Azbaycanla əməkdaşlıq etməyə maraq göstərirlər.

### "QOŞULMAMA HƏRƏKATINDA KÖRPÜ ROLUNU OYNAMAQDA BÖYÜK TƏCRÜBƏMİZ VAR"

Azərbaycan Prezidenti İlham Əliyevin "15-ci Petersberq İqlim Dialoqu"nun Yüksək Səviyyəli Seqmentində iştirakı zamanı "Euronews" telekanalının müxbirinə verdiyi müsahibə zamanı dövlət başçımıza ünvanlanan "Builki COP-dan nə gözləyə bilərik, hansı məsələlər icra olunacaq və sadəcə, müzakirə olunmayacaq?" sualına "Biz bütün tərəflərin özlərini rahat hiss etdiyi bir mühit yaratmaq istəyirik. Bizim Qoşulmama Hərəkatında körpü rolunu oynamaqda böyük təcrübəmiz var. Bildiyiniz kimi, Hərəkata dörd il sədrlik etdik. Hesab edirəm ki, 120 üzv ölkə ilə biz həqiqətən də böyük tərəqqiyə nail olduq. Biz Avropa İttifaqına üzv olan ölkələrlə fəal işləyirik. Bu gün konfransda dediyim kimi üzv ölkələrin doqquzu ilə strateji tərəfdaşlıq haqqında Bəyannaməni imzalamışıq və qəbul etmişik. Digər sözlə, Qlobal Cənub və Qərb və iqlim dəyişikliyi məsələlərinin öhdəsindən gəlmək üçün birlikdə bu prosesdə necə iştirak etməliyik, həmrəyliyi, ortaq məsuliyyəti necə gücləndirməliyik və iqlim dəyişikliyi məsələləri ilə bağlı müəyyən inamsızlığı necə azaltmalıyıq?" - deyə bildirmişdir.

### "HƏMRƏYLİK MALİYYƏLƏŞMƏNİN VƏ NECƏ UĞUR QAZANACAĞIMIZIN AYRILMAZ HİSSƏSİDİR"

Azərbaycanın yekdilliklə BMT-nin İqlim Dəyişikliyi Konfransına ev sahibliyi edəcək bir ölkə kimi seçilməsi dövlətimizin daha bir uğuru, eləcə də qlobal miqyasda güclü diplomatiyasının göstəricisidir. Əlbəttə ki, Azərbaycanın beynəlxalq miqyaslı - BMT Təhlükəsizlik Şurası, Qoşulmama Hərəkatı və Türk Dövlətləri Təşkilatı kimi beynəlxalq təsisatlarda uğurla sədrlik etməsi ona göstərilən etimadın, inamın göstəricisidir. 2024-cü il COP29-a ev sahibliyi etmək növbəsi Şərqi Avropa regional qrupuna düşmüşdü. Sözügedən qrupa daxil olan ölkəmiz konfransın Azərbaycanda keçirilməsi ilə bağlı namizədliyini irəli sürmüşdü. Şərqi Avropa regional qrupu Azərbaycanı 2024-cü ildə COP-a ev sahibliyi edəcək ölkə kimi müəyyənləşdirib. Azərbaycan Prezidenti İlham Əliyevin nümayiş etdirdiyi güclü siyasi iradə və Şərqi Avropa Qrupunun üzvü olan dövlətlərin Azərbaycanın COP29-a ev sahibliyi etmək üçün ölkəmizin namizədliyini dəstəkləməsi uğurumuzda mühüm əhəmiyyət kəsb edir. SOP29-un ölkəmizdə keçirilməsi sülh prosesinin məntiqidir.

Məlumdur ki, ötən il BƏƏ-də keçirilən COP28-də qazıntı yanacağı ideyası üstünlük təşkil edirdi. "Sizin fikrinizcə, COP tarixində qazıntı yanacağı hasil edən ölkənin dəyişikliklərin edilməsi və keçid prosesində aparıcı rola malik olması müsbət hadisə olaraq qiymətləndirilirmi?" sualına gəlincə isə Prezident İlham Əliyev "Biz məhz buna nail olmağa çalışırıq" - deyə bildirib ki, konfransda verdiyim mesajlardan biri də o idi ki, bizi malik olduqlarımıza görə mühakimə etməyin: "Bizi onlardan necə istifadə etdiyimizə, gündəmimizə görə mühakimə edin. Avropadakı, Qoşulmama Hərəkatındakı iştirakımızla bağlı dediklərimdən əlavə, həmçinin bir məsələni də anlamaq vacibdir ki, biz həm də OPEC+ üzv ölkəsiyik. Biz COP-dan əvvəl daha çox maliyyələşməni təmin etmək üçün Azərbaycan və neft hasil edən digər ölkələrin hansı əlavə töhfələri ola bilər kimi həmrəylik paketini yaratmaq üçün bir çox neft hasil edən ölkələrlə işləyirik. Hesab edirəm ki, neft hasil edən ölkələr, xüsusilə neftin qiyməti yüksək olanda problemin öhdəsindən gəlmək üçün daha çox ödəniş etməli və daha çox töhfə verməlidir. Hesab edirəm ki, həmrəylik maliyyələşmənin və necə uğur qazanacağımızın ayrılmaz hissəsidir".

Azərbaycanda 2027-ci ilin sonuna qədər 9 Günəş və külək elektrik stansiyası istismara veriləcək. Onların enerji potensialı 2 qiqavata bərabərdir. 2030-cu ilə qədər isə əlavə 10 külək və Günəş elektrik stansiyası tikiləcək ki, onun da potensialı 5 qiqavata qədərdir. Azərbaycan müasir dünyada Avropaya yaşıl enerjini ixrac etmək istiqamətində ardıcıl işlər görür.

Dünyada baş verən geosiyasi hadisələr fonunda enerji təhlükəsizliyi məsələləri diqqətdən kənarda qalmır. Avropanın enerji sahəsində asılılığı azaltmaq, alternativ mənbələr və etibarlı tərəfdaşlar axtarışında Azərbaycana xüsusi önəm verməsində bir sıra amillər özünü göstərir. Müasir dövrdə Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rola malikdir.

### "NEFTİ OLMAYAN ÖLKƏLƏR NEFTİ OLAN ÖLKƏLƏRİ İTTİHAM ETMƏMƏLİDİR"

"Əgər yaşıl dünyaya doğru əlavə və davamlı olan konkret addımlar ata bilsək, bu, ən vacib miras olacaq" - deyən Prezident diqqətə çatdırıb ki, COP üçün yenilik olan bir təşəbbüs bizim tərəfimizdən irəli sürülmüşdür. "Üçlük, üç ölkə mexanizminin yaradılması. Burada məqsəd bu üçtərəfli əməkdaşlıq formatını yaratmaq üçün BƏƏ-nin, Azərbaycanın və sonra Braziliyanın təcrübəsindən istifadə etməkdir" - deyən Prezident bildirib ki, hər üç ölkə müxtəlif regional, iqtisadi, siyasi və sair məsələlərdə iştirak edir. Beləliklə, biz qarşılıqlı səylər, həmrəylik göstərməli, bir-birimizi günahlandırmağı dayandırmalıyıq: "Nefti olmayan ölkələr nefti olan ölkələri ittiham etməməlidir, kiçik və inkişaf etməkdə olan ölkələr inkişaf etmiş böyük ölkələrə "siz iqlim fəlakətinə görə məsuliyyət daşıyırsınız" deməklə onlara qarşı tələblər irəli sürməməlidirlər. Beləliklə, bu, diplomatiyadır, siyasətdir, maliyyədir və əlbəttə ki, ev sahibi ölkəsi kimi biz bunun üçün bir platforma yarada bilərik".

İqlim dəyişikliyi ilə bağlı 2030-cu ilə qədər dünyada əsaslı irəliləyişə nail olunacaq və qarşıda duran vəzifələrin həlli üçün Azərbaycanda keçiriləcək COP29-a qədər də ardıcıl işlərin aparılır. Birləşmiş Ərəb Əmirlikləri, Azərbaycan və Braziliya birlikdə "üçlük" olaraq öz qarşılarına məqsəd qoyublar ki, COP29 və COP30 istiqamətində milli səviyyədə müəyyən edilmiş töhfələrin birgə təqdim olunması üçün fəaliyyət göstərsinlər. Bu istiqamətdə olan format uzunmüddətlidir.

Məlumdur ki. Azərbaycan beynəlxalq səviyyəli COP29-a sədrliyi öz üzərinə götürüb. 2030-cu ilə qədər Azərbaycanın enerji sektorunda külək, Günəş və su elektrik enerjisinin payını 30 faiz artıracaqdır. Əlbəttə ki, yaşıl enerjiyə keçidlə bağlı bütün ölkələrin səylərinin birləşdirilməsi vacib məsələlərdəndir.

***Zümrüd BAYRAMOVA***

# Sülhə gedən YOL

***Cənubi Qafqazda sülh dövrünə qədəm qoyulmaq üzrədir. Azərbaycan və Ermənistan regionda sülhün, əməkdaşlıq mühitinin təmin olunması üçün bütün səylərini ortaya qoyduqları təqdirdə sülh dövrünün astanasında olduğumuz bəlli olur. Artıq hər iki dövlət heç bir kənar iştirakçı olmadan bütün məsələləri ortaya qoyub öz aralarında müzakirələr aparırsa, bu, elə sülhə gedən yolu daha da tezləşdirir. Daha doğrusu, artıq sülhə gedən yol göz önündədir və bu yolun uğurlu olacağına əminliyimiz kifayət qədərdir.***



Qarşılıqlı etimad mühitinin və xoş niyyətlə aparılan müzakirələrin, danışıqların, əməkdaşlığın reallaşması artıq sülh yoluna başlanıldığı barədə çox xoş bir mesaj verir. Çünki sülh yolunda həllini gözləyən məsələlər artıq öz həllini tapmaqdadır və məsələlərin ən doğru, aydın və qanuna uyğun şəkildə həll edilməsi istiqamətində atılan addımlar həmin o xoş mesajı təsdiqləyir. Sadəcə olaraq, bəzən çox təəssüflər olsun ki, Ermənistanın davranışlarını, mövqeyini tez-tez dəyişdirdiyinin şahidi olmuşuq və ümid edirik ki, artlq rəsmi İrəvan öz mövqeyini dəyişməyəcək, öz qərarlarını özü verəcək. Güman edirik ki, iki dövlətin təkbətək görüşməsindən, qərar verməsindən narahat olan dövlətlər Ermənistanın daxili siyasətinə bundan sonra qarışa bilməzlər, çünki buna da lüzum qalmır. Sadəcə olaraq, təmkinli olmaq lazımdır. Heç şübhəsiz ki, sülh müqaviləsinin sabah imzalanacağını demək olmaz, amma Cənubi Qafqazda sülhün bərqərar olması artıq qamılmazdır. Regionda sülhün yaradılması isə region ölkələrinin iqtisadi inkişafı üçün əvəzsizdir. Sülh müqaviləsinin imzalanması ələlxüsus rəsmi İrəvan üçün daha vacibdir, çünki məhz sülh Ermənistanı düşdüyü bataqlıqdan xilas edə bilər. Sülhə gedən yol erməni xalqı üçün daha çox vacibdir.

Doğrudur, İkinci Qarabağ müharibəsindən 3 ildən də bir qədər artıq vaxt keçməsinə baxmayaraq, hələ də sülh əldə olunmayıb. Əfsus ki, buna mane olan xarici qüvvələr öz mənfi təsirlərini göstərə biliblər və həmin təsirlərin olması da təkzibedilməzdir. Bununla bağlı çox böyük təəssüf hissi var, amma səbbələri də mövcuddur. Əsas məqamlardan biri məsələn, məhz ABŞ-dakı erməni lobbisi və diasporunun fəaliyyəti ilə bağlıdır. Çünki, ABŞ-dakı erməni lobbisi bir çox hallarda ölkədəki konqresmen və senatorların qərarlarına təsir edə bilir. Nəticədə Konqresdəki bir çox siyasətçilər zaman-zaman qərəzli bəyanatlar səsləndirirlər. Bəzən isə hətta həddi aşaraq, məsələn, antiterror tədbirlərinə görə belə Azərbaycana qarşı sərt tədbirlər görməyə çağırıblar. Heç şübhəsiz ki, bu cəhdlərin hamısı boş, mənasızdır və senatorlar, konqresmenlər qətiyyən nəyə isə nail ola bilməzlər, hansıki bunun reallıq, həqiqət olduğunu özləri də yaxşı bilirlər. Hətta sevindirici haldır ki, artıq bu həqiqətlər, o cümlədən sülh istiqamətində atılan addımlar onu deməyə əsas verir ki, baş verən proseslər nəinki Bakının, ümumilikdə Cənubi Qafqazın maraqlarına uyğun şəkildə gedir. Azərbaycan və Ermənistan arasında birbaşa təmaslar vasitəsilə əldə edilmiş bir çox razılaşma da bunun əyani sübutudur.

Rəsmi Bakının hərbi-siyasi, diplomatik, strateji üstünlüklərinin açıq-aşkar reallığı Azərbaycana həm sülh danışıqlarında, həm də mümkün eskalasiya variantlarında nailiyyətlər qazandırır. Ən azından, formalaşan mənzərədən belə qənaətə gəlmək olur. Liderlərin gündəmi ilə regionda cərəyan edən hadisələr göstərir ki, itiriləcək heç nə yoxdur. Əksinə, qazanılacaqlar hədsiz dərəcədədir və bunu Ermənistan tərəfi də nə qədər tez başa düşürsə, bir o qədər daha tez sülhə nail olunur. Üstəlik, erməni separatçılarının belə artıq bütün istiqamətdə yolları bağlıdır və hansısa formada müdaxilələri mümkünsüzdür. Onların silah təminatı yolu artıq qapalıdırsa, Azərbaycan sərhədçiləri Laçın yolunun Ermənistanla birləşən nöqtəsində keşik çəkərək Qarabağa giriş-çıxış üzərində hüquqi nəzarət həyata keçirirlərsə, deməli, kimlərinsə, ələlxüsus da separatçıların regiona burun soxmaları artıq özlərinin belə ağıllarına gələ bilməz. Bu isə o deməkdir ki, sülhə gedən yolda tikanlar da artıq aradan qaldırılıb və məhz sülhə gedən yol heç də uzaq yol deyil.

Qalib Azərbaycan dövləti hər zaman olduğu kimi, hətta postmüharibə dövründə də regionda davamlı sülhün və təhlükəsizliyin təmin olunmasına, regionda əməkdaşlığın möhkəmlənməsinə, kommunikasiyaların bərpasına hesablanan davranışlar nümayiş etdirir.

Xatırladaq ki, postmüharibə dövründə Ermənistanla sülh sazişinin imzalanması və iki ölkə arasında sərhədlərin müəyyənləşdirilməsi Azərbaycanın gündəliyinin mərkəzində dayanır. Azərbaycan Prezidenti daim əsaslandırır ki, iki ölkə arasında sülh sazişi imzalanmadan digər prosesləri irəli aparmaq mümkün deyil. Hər iki ölkə beynəlxalq prinsiplərə və tarixi sənədlərə istinad etməklə bir-birinin ərazi bütövlüyünü, suverenliyini tanımalı, sərhədlər delimitasiya və demarkasiya edilməlidir. Azərbaycan postmüharibə dövründə qalib tərəf olaraq hər hansı bir imtiyaz gözləmədən və şərt irəli sürmədən qarşı tərəfə sülh paketi təqdim edib. Bu sənəddə dövlətlərin bir-birilərinin suverenliyi, ərazi bütövlüyü, beynəlxalq sərhədlərinin toxunulmazlığı və siyasi müstəqilliyini qarşılıqlı şəkildə tanıması, dövlətlərin bir-birilərinə qarşı ərazi iddialarının olmamasının qarşılıqlı təsdiqi və gələcəkdə belə bir iddianın qaldırılmayacağına dair hüquqi öhdəliyin götürülməsi, dövlətlərarası münasibətlərdə bir-birilərinin təhlükəsizliyinə hədə törətməkdən, siyasi müstəqillik və ərazi bütövlüyünə qarşı hədə və gücdən istifadə etməkdən, habelə BMT Nizamnaməsinin məqsədlərinə uyğun olmayan digər hallardan çəkinmək, dövlət sərhədinin delimitasiyası və demarkasiyası, diplomatik münasibətlərin qurulması, nəqliyyat və kommunikasiyaların açılışı, digər müvafiq kommunikasiyaların qurulması və qarşılıqlı maraq doğuran digər sahələrdə əməkdaşlığın qurulması kimi müddəalar yer alıb. Bir sözlə, müəmmalı qalan nə isə ola bilməz. Bu isə o deməkdir ki, sülhə gedən yol heç də uzun yol deyil və buna nail olacağına zərrə qədər şübhə ola bilməz.

***İnam Hacıyev***

# YAP Mərkəzi Aparatında görüş keçirilib



**Mayın 23-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında YAP Gənclər Birliyinin üzvləri ilə ölkəmizdə səfərdə olan Türkiyənin Anadolu Aslanları İş Adamları Dərnəyi Gənclər Təşkilatının nümayəndə heyəti arasında görüş keçirilib.**



Qonaqları salamlayan YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov Azərbaycanla Türkiyənin "bir millət, iki dövlət" fəlsəfəsinə əsaslanan dostluq, qardaşlıq və strateji müttəfiqlik münasibətlərinin zirvədə olduğunu bildirib. O, iki ölkənin liderləri - Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğanın məqsədyönlü siyasəti nəticəsində bütün sahələrdə əlaqələrin yüksələn xətt üzrə inkişaf etdiyini, milli maraqlarımızın uğurla təmin olunduğunu diqqətə çatdırıb. YAP Gənclər Birliyinin sədri bu amilin iki ölkə gənclərinin də sıx təmasları və əməkdaşlığı üçün möhkəm bünövrə yaratdığını diqqətə çatdırıb.

İki qardaş ölkənin hakim partiyaları arasında əlaq

ələrin Azərbaycan-Türkiyə münasibətlərinin inkişafına önəmli töhfələr verdiyini vurğulayan B.İslamov 2021-ci ilin iyun ayında YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun rəhbərlik etdiyi nümayəndə heyətinin Ankaraya səfəri zamanı YAP ilə AK Partiya arasında Əməkdaşlıq Protokolunun imzalanmasının əhəmiyyətini diqqətə çatdırıb. O, hər iki partiyanın gəncləri arasında fəal əməkdaşlığın mövcud olduğunu söyləyib.

Görüşdə Türkiyənin Anadolu Aslanları İş Adamları Dərnəyi Gənclər Təşkilatının rəhbəri Abdullah Uçan ölkəmizə səfərdən məmnunluğunu bildirib. Səfər çərçivəsində keçirilən görüşlərin əhəmiyyətindən bəhs edən A.Uçan rəhbərlik etdiyi qurumun fəaliyyəti barədə məlumat verib və təşkilatın öz sıralarında gənc iş adamlarını birləşdirdiyini qeyd edib. O, bir millətin iki dövləti olan Azərbaycan ilə Türkiyənin gəncləri arasında dostluq və qardaşlıq prinsipinə əsaslanan işbirliyinin parlaq perspektivlərə malik olduğunu bildirib. Görüş iştirakçıları iki qardaş ölkənin gənclərinin Türkiyə-Azərbaycan əlaqələrinin inkişafına layiqli töhfə vermək əzmində olduqlarını vurğulayıblar. Sonda qarşılıqlı hədiyyələr təqdim olunub və xatirə fotosu çəkdirilib.



# Gürcüstan Qərbə qarşı

## ABŞ və Aİ Gürcüstanın xarici agentlərlə bağlı qanununa sanksiyalarla cavab verəcək

Mayın 28-i Gürcüstanla Qərb arasında münasibətlərdə dönüş nöqtəsi ola bilər. Bu gün hakim Gürcü Arzusu (GM) partiyasından olan parlament çoxluğu prezident Salome Zurabişvilinin ”Xarici təsirin şəffaflığı haqqında” qanuna qoyduğu vetonu ləğv etməyi planlaşdırır. Avropa paytaxtlarından və Vaşinqtondan getdikcə daha sərt xəbərdarlıqlar gəlsə də, hakimiyyət güzəştə getməyəcək. Gürcüstanın Qərb tərəfdaşlarının ”Xarici təsirin şəffaflığı haqqında” qanunla bağlı mövqeyi Avropa Şurası rəhbərliyinin xüsusi göstərişi əsasında sənədi tədqiq edən Konstitusiya Hüququ üzrə Venesiya Komissiyası (VC) tərəfindən konsentrasiya edilmiş formada formalaşdırılıb. Komissiya Gürcüstan hakimiyyətindən ”təcili hüquqi tədbir” kimi daha əvvəl üç oxunuşda qəbul edilmiş qanunu ləğv etməyi və prezident Salome Zurabişvilinin vetosunu ləğv etməməyi tələb edib. Özlüyündə belə bir çağırışın 1990-cı ildə Avropa Şurası nəzdində yaradılmış Venesiya Komissiyasının (VK) praktikasında demək olar ki, heç bir presedenti yoxdur.



Qeyd edilir ki, baxılan qanun ”Gürcüstanda plüralizm və demokratiyaya zərər verəcək" - xüsusən də vətəndaşların sərbəst toplaşmaq və ifadə azadlığı, ünsiyyət və şəxsi həyatın toxunulmazlığı hüquqlarını, habelə ictimai və vətəndaş hüquqlarını pozacaq. Nəticədə



komissiya üzvlərinin dediyi kimi, təşəbbüs vətəndaşlara qarşı ayrı-seçkiliyə şərait yaradacaq. Bundan əlavə, Venesiya Komissiyası qeyd edir ki, qanun layihəsinin müzakirəsi ”qeyri-demokratik şəkildə baş tutub”. Söhbət müxalifətçi deputatların parlamentin plenar iclaslarının zalından və ya hüquq komitəsində keçirilən dinləmələrdən qovulması hallarından gedir. Hadisələr müxalifət nümayəndələrinin qanunla bağlı çıxış edənlərlə mübahisə etməyə çalışdıqları zaman baş verib. VK-nın iyirmi səhifəlik yekun sənədində ”ictimai etiraza” - qanuna qarşı mitinq və nümayişlərə, həmçinin polis və Daxili İşlər Nazirliyinin xüsusi təyinatlı dəstələri ilə şiddətli toqquşmalara çox diqqət yetirilir.

Avropa Şurasının baş katibi Mariya Pejçinoviç-Buriç Venesiya Komissiyası rəyini dərc edəndən dərhal sonra Gürcüstan hakimiyyətini qanunu Avropa standartlarına uyğunlaşdırmağa çağırıb. Mahiyyət etibarı ilə bu, sənədin ləğv edilməsi tələbi demək idi, çünki sənəd artıq üç oxunuşda qəbul edilib və ona hər hansı dəyişiklik etmək hüquqi baxımdan mümkün deyildi. Bundan əvvəl Tbilisiyə oxşar çağırışlar Fransa prezidenti Emmanuel Makron, Almaniya kansleri Olaf Şolz, Böyük Britaniya Xarici İşlər Nazirliyi, Avropa Şurasının prezidenti Şarl Mişel və Avropa Komissiyasının rəhbəri Ursula fon der Leyen tərəfindən edilib.

Məsələ təkcə sözlərlə məhdudlaşmaya bilər. Amerikalı konqresmen Co Vilson ”Gürcü arzusu”nun deputatlarına qarşı sanksiyaların tətbiqi ilə bağlı qanun layihəsi hazırlayıb. Bundan əlavə, ola bilsin ki, mayın 27-də Aİ xarici işlər nazirliklərinin rəhbərləri Brüsseldə keçirilən görüş zamanı qalmaqallı qanunu hazırlayıb qəbul edənlərə qarşı viza və maliyyə sanksiyalarının tətbiqi ilə bağlı Avropa Komissiyasına tövsiyə versinlər. Həmçinin variantlar arasında Gürcüstan vətəndaşları üçün Aİ ilə vizasız rejimin dayandırılması və Avropa Yenidənqurma və İnkişaf Bankı vasitəsilə Gürcüstanda müxtəlif layihələrin maliyyələşdirilməsinin dayandırılması da var.

Üstəlik, Almaniyanın Tbilisidəki səfiri Peter Fişer mayın 22-də gürcü jurnalistlərə müsahibəsində bildirib ki, onun ölkəsi Tbilisinin Aİ-yə tam üzvlüyü ilə bağlı danışıqların başlanmasını dəstəkləməyəcək.

Xatırladaq ki, ötən ilin dekabrından Gürcüstan Avropa İttifaqına namizəd üzv statusuna malikdir. Şəxsi sanksiyalar təhlükəsindən danışan ”Gürcü Arzusu” partiyasının deputatları bunun xüsusilə onlara aid olmadığını açıqlayırlar. Belə ki, parlamentar Bezhan Tsakadze bildirib ki, o, hadisələrin bu cür inkişafından qorxmur, çünki Aİ və ABŞ ”onun doğma Zestafoniyə (Cənab Tsakadzenin anadan olduğu Gürcüstanın qərbində yerləşən şəhər) səfərinə qadağa qoya bilməyəcəklər. Həmkarı Quram Maçaraşvili xatırladıb ki, Gürcüstan ”tarix boyu suverenlik uğrunda mübarizə aparıb və demokratik şəraitdə suverenliyə nail olub”. Əksər deputatların bu cür arqumentlərinə cavab olaraq Mixail Saakaşvilinin ”Vahid Milli Hərəkat” partiyasından Tinatin Bokuçava onları ”simasız loyalçılar” adlandırıb.

Eyni zamanda, ”Gürcü Arzusu” Qərb tərəfdaşlarının hərtərəfli hücumu zamanı ”müdafiədə” oturmur, lakin daim ”əks-hücum” etməyə çalışır. Hakim partiyanın siyasi şurasının deputat Salome Kurasbediani tərəfindən brifinqdə oxunduğu bəyanatda Venesiya Komissiyasının rəyi siyasiləşdirilmiş, əsassız və manipulyasiya adlandırılıb. ”Gürcü Arzusu”nun baş katibi və Tbilisi meri Kaxa Kaladze daha da irəli gedib. O, Avropa Şurasının konstitusiya orqanının rəyini şərh edərək, Qərbi Gürcüstan ərazisində Rusiyaya qarşı ”ikinci cəbhə” açmaqda ittiham edib. ”Əgər həqiqətən də ikinci cəbhə açmaq istəyirlərsə, qoy Baltikyanı ölkələrində açsınlar və Gürcüstanı tək buraxsınlar” deyib. Cənab Kaladze Qərbin Gürcüstana münasibətini qeyri-dost adlandırıb və ”Saakaşvilinin azad edilməsi tələbini” xatırladıb.

Bu arada, 6 il həbs cəzası çəkən keçmiş prezident Mixail Saakaşvilinin özü çərşənbə günü bildirib ki, Gürcüstan hakimiyyətinin Gürcüstanda sakitliyi saxlamaq çağırışları onun üçün qəbuledilməzdir. ”Ən sakit yer qəbiristanlıqdır və Gürcüstan hələ də yaşayır”, - eks-prezident xatırladıb. Xarici agentlər haqqında qanun ləğv edilməsə, Avropa Komissiyası (AK) Gürcüstanın Aİ-yə namizəd statusunu təsdiq edə bilməz, ”Foreing Policy” Aİ-nin yüksək vəzifəli rəsmisinə istinadən xəbər verir. Bundan əvvəl Financial Times yazıb ki, bir sıra Aİ ölkələri xarici agentlər haqqında qanuna görə Gürcüstan hakimiyyətinə qarşı sanksiya tədbirləri, o cümlədən vizasız rejimin dayandırılmasını nəzərdən keçirir. ”Ən çox ehtimal olunan ssenari odur ki, oktyabr ayında qanun geri götürülməsə, AK Gürcüstan hökumətinə üzvlük prosesində iştirak edən ölkələrlə bağlı illik hesabatını dərc edərkən namizəd statusunu təsdiq etməyəcəyini bildirəcək. AB jurnalı qeyd edib ki, Avropa İttifaqı ölkələrinin xarici işlər nazirləri mayın sonunda görüşəcək və çox güman ki, qanunun tətbiqinə mümkün cavabı müzakirə edəcəklər.

Ötən həftə Gürcüstan parlamenti küçə etirazlarına baxmayaraq, ”Xarici təsirin şəffaflığı haqqında” qanunu üçüncü və yekun oxunuşda qəbul edib. Gürcüstan prezidenti Salome Zurabişvili şənbə günü xarici agentlər haqqında qanuna veto qoyub və onu ”Rusiya” və ”qeyri-konstitusiya” adlandırıb. Prezidentin vetonunu ləğv etmək üçün parlamentin sadə səs çoxluğu lazımdır. Baş nazir İrakli Kobaxidze bəyan edib ki, prezidentin təqdim etdiyi əsaslandırılmış şərhlər məqbul olarsa, parlament vetonu dəstəkləyə bilər.

**V.VƏLİYEV**

***Fransada müşahidə edilən xaos və qarışıqlıqlar həmin ölkənin prezidenti Emmanuel Makronun uğursuz və yanlış siyasətinin məntiqi nəticəsidir. Belə bir qənaətə gəlmək üçün məntiqi əsas da var. Beləki, bu vaxta qədər Fransa adlı bir ölkə hələ bu qədər dərin xaos və qarışıqlıq içərisində olmayıb. Bunu həmin o Avropa ölkəsinin mətbuat səhifəsi də təsdiq edir və çox məşhur olan həmin o orqan, daha dəqiq desək, "Le Monde" qəzeti Yeni Kaledoniyadakı iğtişaşların 1980-ci illərdən bu vaxta qədər ən pis, ən kritik səviyyəyə çatdığını yazır və belə çıxır ki, artıq qeyd edlənlər elə fransızlar tərəfindən də qəbul olunmaqdadır.***

# Nümayişkəranə şəkildə ortaya qoyulan XİSLƏT




## Fransa hakimiyyətinin tətbiq etdiyi zor bir növ etiraf olunur və nəzarəti əldə saxlamaq niyyəti də qətiyyən gizli saxlanılmır

Dünyaca məşhur olan "BBC News" xəbər verir ki, hüquq-mühafizə qüvvələrinin hava limanı ilə bu ölkənin paytaxtı arasındakı yolu bağladığını Fransanın mərkəzi hakimiyyət orqanlarının nümayəndəliyi özü belə açıqlayıb. Doğrudur, buna baxmayaraq, yəni, yolun bağlanması fonunda tətbiq edilən təzyiqlərə məhəl qoymayan yerli əhali fransız jandarmlarının güç tətbiq etməsini hesaba da almır, təslim olmaq fikrində də deyil və heç də təslim olacaq kimi də görünmür. Deməli, belə çıxır ki, etiraz edən əhalinin iradəsini qıra bilməyiblər və hələ də mübarizə əzmini də sarsıltmaq kimlərə isə müyəssər olmayıb. Əlbəttə ki, əgər söhbət mübarizədən, mübarizə əzmindən gedirsə, dolayı yolla da olsa bu əzmin olduğu qeyd edilirsə, deməli, Fransa hakimiyyətinin tətbiq etdiyi zor da etiraf olunur.

Sözsüz ki, Yeni Kaledoniyadan məhz Fransanın dörd əllə yapışması heç də təsadüfi, səbəbsiz, əbəs yerə deyil. Bunun səbəbləri kifayət qədər çoxdur. Amma əsas səbəb odur ki, bu əraziyə nəzarət Paris üçün böyük strateji əhəmiyyət kəsb edir. Bu, məhz strateji baxımdan çox vacib sayılır. Ona görə vacib sayılır ki, əvvəla bu, Asiya-Sakit okean regionunda Fransaya geosiyasi və hərbi təsirini saxlamaq imkanı verir. Digər tərəfdən də unutmaq lazım deyil ki, Yeni Kaledoniya nikel istehsalında dünyada dördüncü yerdə qərarlaşıb və mütəxəssislərin fikrincə, ehtiyac bundan sonra ancaq arta bilər. Belə başa düşülür ki, Fransanın mübarizə aparmaq niyyəti artıq ortadadır. Hətta aydın olur ki, Makronun strateji və iqtisadi cəhətdən əhəmiyyətli bir bölgəyə nəzarəti saxlamaq niyyəti də qətiyyən gizli saxlanılmır və bəlkə də bu, Fransa hakimiyyətinin, şəxsən fransızların liderinin səylərinin nəyə hesablandığını da açıb göstərmiş olur.

## Makron öz xislətini nümayişkəranə şəkildə göstərib

Yeni Kaledoniyanın paytaxtındakı mərkəzi meydanda çıxış edən Makron, əslində, ötən ilin ortalarında ölkədən ayrılmaq barədə unutmaq çağırışı edib və hətta konstitusiya islahatları da vəd edib. Amma belə görünür ki, aldatmağı qərara alıbmış. "Ümid edirəm ki, Beşinci Respublikanın Konstitusiyasına yenidən baxılması 2024-cü ilin əvvəlində baş verə bilər və bu, Konstitusiyanın Yeni Kaledoniyaya həsr olunmuş hissəsinin yenidən baxılması məsələsi olacaq", deyən Makron söz versə də sözünü tutmayıb. Deməli, Fransa prezidenti manipulyasiya edirmiş və yalan danışmaq, yalan vəd etməkdə məqsədi tamamilə başqa imiş. Bütün dünya belə artıq şahidi oldu ki, öz müqəddəratını təyinetmə hüququndan istifadə məsələsində Paris Yeni Kaledoniyaya qətiyyən imkan yaratmayıb və şans belə təqdim etməyib. Bir sözlə, Makron öz xislətini öz ölkəsi daxilində də nümayişkəranə şəkildə göstərib.

Əslində, Fransa prezidentinin hansı xislətdə olduğu əvvəldən bəlli idi. Amma haqqında qeyd olunan məsələdə, yəni Yeni Kaledoniyaya öz müqəddəratını təyinetmə hüququndan istifadə məsələsi barədə söz verməsindən və buna əməl etməməsindən sonra onun xisləti tamamilə aşkara çıxmış oldu. Beləki, bu vaxta qədər Azərbaycanın işlərinə həyasızcasına burun soxan və ələlxüsus da bizə məxsus olan Qarabağ ərazilərində 30 il ərzində məskunlaşan erməni əsilli insanların öz müqəddəratı məsələsi barədə hayların xoşu gəlsin deyə hay-küy edən Makron özünü indi tamamilə rüsvay belə edir. Soruşmaq ayıb olmasın, niyə Makron başqalarının, özü də qonşu torpaqlarda yaşayan yadların müqəddəratının vacibliyini ağız dolusu bağırır, amma öz ölkəsinin vətəndaşlarının, Yeni Kalodoniya üçün öz müqəddəratının həlli məsələsini heç yada da salmır? Deməli, öz müqəddəratını təyin etmə hüququnun Fransa daxilində deyil, ancaq Azərbaycan daxilində keçərli olması üçün Makron dəridən qabıqdan çıxır. Ancaq hayların liyiq olmadıqları, əsasları olmayan əlahiddə hüquqlar alması naminə özünü oda-közə vurur. Heç öz ölkəsinin vətəndaşlarını belə düşünmür. Bu da onun xislətini açıb ortaya qoyur. Açıb ortaya qoyur ki, kimlərinsə öz müqəddəratını təyin etmə hüququ barədə heç də Makron çalışmırmış və göstərdikləri də ancaq ermənipərəstlik, yaltaqlıq, həm də erməni lobbisinin səsini qazanmaq səylərindən başqa bir şey ola bilməz, əks halda bunu öz ölkəsi daxilində, Yeni Kaledoniya ilə bağlı edərdi. Bax elə Fransa liderinin əsl xisləti bununla bəlli olur.

## Yeni Kaledoniyadakı son iğtişaşların əsas səbəbi Makronun xisləti, Parisin neokolonial siyasətidir

Makronun ən böyük həyasızlığı, ən alçaq xisləti həm də o zaman aşkara çıxdı ki, o, Azərbaycanın daxili işlərinə qarışmağa çalışmaqla, erməni separatizmini, vandallığını, vəhşiliyini dəstəkləməklə yanaşı, Yeni Kaledoniyada baş verən hadisələrdə həm də utanmadan Azərbaycanı günahlandırır. Diqqətə çatdıraq ki, təkcə Fransa prezidenti Makron deyil, onun hakimiyyət komandasında olanlar da onun diqtəsi altında bunun kimi axmaq fikirlər səsləndirirlər. Məsələn, mayın 16-da Fransanın daxili işlər naziri Cerald Darmanin "France 2" televiziyasına müsahibəsində Azərbaycanın Yeni Kaledoniyadakı vəziyyətə müdaxilə etdiyini, onun Fransadakı müstəqilliyini müdafiə edən siyasi hərəkatları dəstəklədiyini bildirmişdi. "Bu, fantaziya deyil. Təəssüf ki, bəzi separatçılar Azərbaycanla razılığa gəliblər", deyə öz müsahibəsində sayıqlayan Darmanin, hansı müdaxilədən danışdığını açıqlamayıb. Açıqlaya da bilməz axı. Çünki söylədikləri cəfəngiyyatdan başqa bir şey deyil. Xatırladaq ki, bu, fransız siyasətçinin Azərbaycana qarşı ilk ittihamı deyil. Bakının hərəkətlərini "son dərəcə dağıdıcı müdaxilə" adlandıran bu siyasətçi görünür başını tamamilə itirib. Yaxud da Makronun o şəkildə marionetinə çevrilib ki, onun gizlində belə dediklərini, eyni ilə tutuquşu kimi aşkarda təkrarlayır və öz sözlərinə sərhəd qoymadan sayıqlayır.

Heç şübhəsiz ki, Yeni Kaledoniyadakı iğtişaşlarda Bakının iştirakına dair Parisin heç bir sübutu yoxdur və ola da bilməz. Çünki bunu iddia belə etmək axmaqlıqdır. Deməli, Fransanın bacara biləcəyi, Azərbaycana qarşı irəli sürülən, heç bir faktiki sübutla dəstəklənməyən əsassız ittihamlardan başqa bir şey hesab oluna bilməyən iddiaları irəli sürməsi olar. Bunun isə heç bir mənası da yoxdur, hansısa bir mahiyyəti də. Kimsə də buna inanan belə deyil. Çünki Yeni Kaledoniyadakı son iğtişaşların əsas səbəbinin məhz arxipelaqın yerli əhalisinin dözmək istəmədiyi Parisin neokolonial siyasəti olduğunu başa düşmək üçün Amerika kəşf etməyə qətiyyən ehtiyac duyulmur.

***İnam Hacıyev***

# Sənətkar ömrü

***Müsahibim Xalq artisti, Dövlət mükafatı laureatı, görkəmli teatr və kino aktyoru Hacı İsmayılovdur.***

*- Hacı müəllim, salam. Necəsiniz? Sizin Azərbaycan Teatr muzeyində keçirilən yubiley tədbirinizi sosial şəbəkələrdə izlədim. Sənət adamlarına verilən dəyər məni çox sevindirdi. Fürsətdən istifadə edərək, sizi 80 illik yubileyiniz münasibəti ilə "Səs" qəzetinin çoxsaylı oxucuları adından bir daha təbrik edirəm.*

- Çox sağ olun.

*- Hacı müəllim, siz, Akademik Milli Dram Teatrının aparıcı aktyoru kimi fərqli obrazlarla hər zaman tamaşaçılara sevinc bəxş edirsiniz. Həm teatrda, həm də kinoda mükəmməl obrazlar qalereyası yaradan sənətkarsınız. Bunlardan əlavə siz, həm də Azərbaycan Teatr Xadimləri İttifaqı sədrinin səlahiyyətlərini icra edən şəxssiniz. Mümkünsə, Teatr Xadimləri İttifaqında fəaliyyətiniz haqqında oxucularımıza ətraflı məlumat verərdiniz.*

- Böyük məmnuniyyətlə. Bu il mənim ittifaqdakı fəaliyyətimin on ili tamam oldu. On il bundan əvvəl Teatr Xadimləri İttifaqının keçmiş sədri Azər Paşa Nemətov məni ittifaqa dəvət edəndə, düzü tərəddüd keçirirdim. Düşünürdüm ki, aktyor olaraq, mənim üçün teatrda rollarımı oynamaq, kino və televiziya filmlərində çəkilmək daha vacibdir. Lakin Azər müəllim təkid etdi ki, sən mütləq TXİ-da olmalısan. Bu gün artıq düşünürəm ki, yaxşı ki mən onunla razılaşdım və artıq 2014-cü ildən buradayam. Sən də o vaxt burada işləyirdin. TXİ-da Mustafa Mərdanov səhnəsini, sənin yazdığın ”Mənim müasirlərim, mənim xatirələrim” əsəri ilə açdıq. Azər Paşa Nemətovun rejissorluğu və mənimlə xalq artisti Rafiq Əzimovun rol aldığı tamaşa uğurla oynanıldı.

*- Yadımdadır.*

- Burda çalışdığım müddətdə TXİ-dakı işimə məndə həvəs çoxaldı. Əvvəl elə bilirdim ki, bu sahədə çox şeyi bilirəm. Amma bura gələndən sonra məlum oldu ki, bilmədiyim çox mətləblər var. Yaradıcı insanın bunları bilməyi yaxşıdır. On il ərzində TXİ-da bir çox tədbirlər, yubileylər, ad və anım günləri, təqdimatlar və sairlər keçirdik.

*- Bütün bu tədbirlər milli teatr sənətinin inkişafına xidmət edir.*

- Elədir ki var. Mən TXİ-ya gəldiyim ilk gündən anladım, bu bizim nisamnaməmizdə də var. ”TXİ milli teatr sənətinin inkişafının həllində yardımçı olmalıdır”. Biz buna çalışırıq. Bilirsiniz ki, ölkədə 27 Dövlət, 10 özəl teatr fəaliyyət göstərir. Düzdür, özəl teatrlarla bizim əlaqəmiz bir qədər zəifdir və buna da səbəbkar özləridir. Nədənsə, müstəqil teatrlar özlərinə aludədirlər...

*- Onlar özlərini kənarda saxlayırlar.*

- Bəli. Amma gələcəkdə biz onlarla da əlaqəni gücləndirəcəyik.



*- Sağlıq olsun.*

- Keçən ilin aprel ayında, uzun illər TXİ-ya rəhbərlik etmiş Azər Paşa Nemətov rəhmətə gedəndən sonra, ittifaqda çaşqınlıq yaranmışdı. Çox adam elə bilirdi ki, TXİ fəaliyyətini ya dayandırar, ya da zəiflədər. Biz buna imkan vermədik. TXİ-da bütün məsələləri İdarə heyəti həll edir. İdarə heyətinin iclasında belə qərara alındı ki, mən TXİ-nın sədrinin səlahiyyətlərini icra edim və elə o vaxtdan bu işi yerinə yetirirəm. Kiminsə şübhələri, iradları var idi. Bunları aradan qaldırmaq üçün, ilk növbədə, mənim təklifimlə bölgə teatrları ilə əlaqələri daha da möhkəmlətdik. Çünki onlarla əlaqələr zəifləmişdi. Onalrın fəaliyyətləri haqqında kifayət qədər məlumatımız yox idi. Bütün bu çatışmazlıqları aradan qaldırmaq üçün Mədəniyyət nazirliyi ilə birlikdə TXİ-da ”Qonaq teatr” layihəsini həyata keçirdik. Bunun formasını düşündük. Araşdırıb, gördük ki, keçən il ölkənin 4 dövlət teatrlarının yubiley ilidir. Birinin 100, o birinin 90, digərinin 55, o birinin də 50 illik yubileyidir. Biz o teatrları paytaxta TXİ-nın zalında tamaşalarını oynamağa dəvət etdik...

*- Deməli, siz ilk olaraq bölgə teatrlarından başladınız?*

- Bəli, onlardan başladıq. İlk qonağımız 100 illik yubileyi qeyd olunan Ağdam Dövlət Dram Teatrı oldu. Onlar yerli dramaturq N.Qədimlinin ”Şuşadan gələn səs” tamaşasını yüksək səviyyədə oynadılar. Yubileyləri olan o biri teatrlar da tamaşalarını TXİ-nin səhnəsində uğurla təqdim etdi. Sonra belə məlum oldu ki, yubileyi olan teatrların sayı 4 deyil, 8-dir. Beləliklə, Mədəniyyət nazirliyi ilə birgə ”Qonaq teatr” layihəsi çərçivəsində TXİ-nın səhnəsində 8 tamaşa oynanıldı. Bölgə teatrlarının Bakıda tamaşalarını oynaması, bir növ onlar üçün imtahan idi. Onlar çox böyük coşqu və həvəslə tamaşalarını paytaxt tamaşaçılarına təqdim etdilər. Bu bölgə teatrlarının yaradıcılığının inkişafına müsbət təsir edən proses idi. Biz ”Qonaq teatr” layihəsini daha da genişləndirmək istədik. Bu məqsədlə Antaliyadan Böyük Şəhər Teatrını Bakıya dəvət etdik. Onlar Pərvin Unalpın ”Gec qalanlar” tamaşasını təqdim etdilər. Tamaşanın quruluşçu rejissoru, həmyerlimiz, əməkdar artist Nofəl Vəliyev idi. O, eyni zamanda TXİ-nın Mustafa Mərdanov səhnəsində Elçin Hüseynbəylinin ”Qaçaq qocalar” tamaşasını hazırlamışdı. Bu tamaşa Türkiyənin bir çox şəhərlərində oynanılmış və yüksək səviyyədə qəbul edilmişdi. Dənizlidə, Bursada, Antaliyada, Mudaniya deyilən məkanda bu tamaşa uğurla oynanmışdı. Hətta Antaliyada tamaşaçıların xahişi ilə tamaşa iki gün təqdim edilmişdi. Mən Antaliya Böyük Şəhər Teatrının repertuarının ”Geç qalanlar” tamaşasını gördüm və haçansa tamaşanı Bakıya dəvət etməyi qərarlaşdırdım. Keçən ilin dekabr ayında biz onları Bakıya dəvət etdik. Bakı tamaşaçısı bu tamaşanı maraqla qarşıladı. Türk qardaşlarımız da Bakı səfərindən çox məmnun qaldılar. Biz bir millət iki dövlətik. Bizim iqtisadi, siyasi əlaqələrimizlə yanaşı, mədəni əlaqələrimizin də möhkəm olması vacibdir. Bu bizim ”Qonaq teatr” layihəmizin uğuru idi. Tamaşaçıların layihəmizə marağı böyük idi. Bu bir növ teatr bayramı idi. Məsləhət oldu ki, bu ildə layihəni davam etdirək. ”Qonaq teatr” layihəsi çərçivəsində Lənkəran, Qazax , Qusar və Ağdam teatrlarının tamaşaları ilə bir daha TXİ-yə dəvət etdik. Beləliklə, ”Qonaq teatr” layihəsində oynanılan tamaşaların sayı, artıq 13-ə çatdı. Yazıçı, dramaturq Firuz Mustafa Trabzon şəhər teatrını Bakıya dəvət edilməsini təkid etdi. Çünki bu teatr onun əsərini tamaşaya qoymuşdu. Teatrla əlaqə yaratdıq. Nəhayət, bu layihə çərçivəsində Türkiyənin Trabzon şəhər teatrında həmyerlimiz Firuz Mustafanın ”Neytral zona” (”Tarafsız bölgə”) tamaşası Bakıya dəvət olundu. Bu il may ayının 5-də Trabzon şəhər teatrı Bakıda olacaq və may ayının 6 və 7-də adı çəkilən tamaşa tamaşaçılara təqdim olunacaq. May ayının 8-də adı çəkilən teatrla TXİ-nın konfrans zalında Trabzon şəhər teatrının kollektivi ilə görüş keçiriləcək. May ayının 9-da isə, qonaqlar məmləkətlərinə yola düşəcəklər. Amma gördüklərimiz işlər bunlarla bitmir. Biz Azərbaycanda keçirilən Özbəkistan günlərində Səmərqənd DDT-nın ”Leyli və Məcnun” tamaşasını seyr edib, onlarla TXİ-nın konfrans zalında görüş keçirdik. Biz ”Qonaq teatr” layihəsi çərçivəsində ittifaqa dəvət edilən teatrların yaradıcı kollektivləri kimi, Səmərqənd teatr kollektivini də yaradıcılıq uğurlarına görə fəxri fərmanlarla mükafatlandırdıq. Tədbirlərimiz haqqında hələlik bu qədər...

*- Bir ildə kifayət qədər böyük işlər görmüsünüz.*

- Milli teatr sənətinin inkişafına xidmət etməyə çalışırıq. Bilirsiniz ki, qarşıda TXİ-nın konfransı gözlənilir. İttifaqın konfransı 5 ildən bir keçirilir. Bu il oktyabr ayının 15-20-si arası TXİ-nın növbəti konfransının keçirilməsi nəzərdə tutulur. Konfransa TXİ-nın üzvləri dəvət olunurlar. Burada sədr konfrans iştirakçılarına ötən dövr ərzində görülmüş işlər haqqında məruzə edir. Sədrin gördüyü işlər müzakirə olunub, səsə qoyulur və növbəti 5 ilə yeni sədr seçilir. Sədr isə, öz növbəsində müavinləri seçir. Konfransa hazırlaşmaq lazımdır. Həm video materiallar hazırlanır, həm də digər təşkilati işlər görülür.

Mən bu məsələyə ona görə toxunuram ki, keçən il sədrimiz rəhmətə gedəndən sonra Teatr Xadimləri İttifaqı haqqında müxtəlif mülahizələr, xoşagəlməz söz-söhbətlər olmuşdu. Bəzi insanlar özlərini TXİ-nın sədri vəzifəsində görürdülər. Mən yuxarıda bu məsələyə toxundum. TXİ-nın idarə heyətinin qərarı ilə sədr vəzifəsinin səlahiyyətlərinin icrası mənə həvalə olundu. Mən hamının fikirlərinə həmişə hörmətlə yanaşıram. Tarixə müraciət etsək görərik ki, 1897-ci ildən yaradılan ittifaq, əvvəl ”Artistlər İttifaqı” adı ilə fəaliyyətə başlayaraq, sonralar 1920-ci ildə ”Türk Aktyorlar İttifaqı”, 1948-ci ildə ”Azərbaycan Teatr Cəmiyyəti” kimi fəaliyyətini davam etdirərək, 1987-ci ildən ”Azərbaycan Teatr Xadimləri İttifaqı” adlandırılıb. Teatr cəmiyyətinin başında Sultan Məcid Qənizadə, Həbib bəy Mahmudbəyov, Əbdürrəhim bəy Haqverdiyev, Nəriman Nərimanov, Üzeyir və Zülfüqar Hacıbəyov qardaşları və Abbas Mirzə Şərifzadə kimi maarifpərvər insanlar durmuşlar. Sonralar bu təşkilata Azərbaycanın görkəmli sənətkarları Şövkət Məmmədova, Rza Təhmasib, Mərziyə Davudova, Mustafa Məmmədov, Şəmsi Bədəlbəyli, Mehdi Məmmədov, Lütfiyar İmanov, Həsən Turabov, Azər Paşa Nemətov rəhbərlik etmişlər. Şövkət Məmmədova, Mərziyə Davudova, Lütfiyar Məmmədov və Mehdi Məmmədov SSRİ xalq artistləri olublar. Teatr Xadimləri İttifaqına rəhbərlik edən şəxs həm teatr tarixini mükəmməl bilməli, həm də teatr fəaliyyəti ilə yaxından məşğul olmalıdır. Teatr Xadimləri İttifaqı yarananda bəri sədrliyə, bir qayda olaraq, yaradıcı insanlar seçiliblər. TXİ uzun, keşməkeşli və şərəfli bir yol keçib. Biz Azərbaycanda belə bir ittifaqımızın olmağı ilə fəxr etməliyik.

Teatr Xadimləri İttifaqının fəaliyyətinə qalınca, biz işimizi davam etdiririk. TXİ-nın son illərdə keçirdiyi ”Qonaq teatr” layihəsi bölgə teatrlarının bir çox yaradıcılıq problemlərini üzə çıxardı. Bu layihə çərçivəsində oynanılan tamaşalar içərisində yaxşı, orta və zəif səviyyədə olan tamaşalar təqdim edildi. Bizim üçün əsas olan bölgə və digər teatrların yaradıcılığına stimul vermək idi. Mədəniyyət nazirliyinin bütün tədbirlərimizdə bizi dəstəsləməyi sevindirici haldır. Biz bütün tədbirlərimizi onlarla birlikdə keçiririk. Mədəniyyət nazirliyinin də bir layihəsi var. Bu paytaxt teatrlarının bölgələrə səfəridir. Mənim çalışdığım Akademik Milli Dram Teatrı da tamaşaları ilə iki dəfə Mingəçevir Dövlət Dram Teatrında, Lənkəran Dövlət Dram Teatrında, Şəki Dövlət Dram Teatrında, Gəncə Dəvlət Dram Teatrında tamaşaları ilə çıxışlar ediblər. Bunlar ümumilikdə Azərbaycan teatrının inkişafına xidmət edən silsilə tədbirlər hesab edilmədir.

***- Hacı müəllim, siz ömrünüz boyu milli teatr və kino sənətinin inkifana çalışan sənət xadimisiniz. Mən, düzü on il bundan əvvəl, siz TXİ-ya yaradıcılıq üzrə sədrin müavini vəzifəsinə gələndə, düşünürdüm ki, görəsən yaradıcı insan olaraq burada necə işləyəcəksiz? Çünki, siz teatrda və kinoda daim məşğul bir adamsınız. TXİ isə, necə olmasa da, müəyyən qədər, məmur işidir. Amma bir qədər keçəndən sonra, məlum oldu ki, siz TXİ-da da işlərinizi uğurla həyata keçirirsiniz. Milli teatrın inkişafına xidmət edən layihələr, saysız-hesabsız tədbirlər, o cümlədən, "Qonaq teatr" layihəsində bölgə teatrlarının paytaxta dəvət olunması və sair dediklərimizə əyani sübut ola bilər.***

- Çox sağ olun. Biz bölgə teatrlarını Bakıya dəvət edib, geniş ictimaiyyətə onların tamaşalarını təqdim etməklə, qeyd etdiyim kimi, onların problemləri ilə yaxından tanış olduq. Bölgə teatrlarında tamaşaçı və repertuar, ixtisaslı kadrların azlığı və sair problemləri var. Amma problemlərin tədricən həll olunacağına inanıram.

Onu da qeyd etməliyəm ki, TXİ-da həmçinin dörd yaradıcı laboratoriya fəaliyyət göstərir. Onlar, dramaturgiya, rejissura, aktyor və eksperimental teatr laboratoriyalarıdır. Bundan əlavə TXİ-da həm də bölgə teatrlarının işi üzrə laboratoriya fəaliyyət göstərir. Bu laboratorayalar üçün dram əsərləri yazılaraq, tamalar hazırlanır. Artıq 4 ildir ki, TXİ-da fəaliyyət göstərən laboratoriyaların hazırladığı tamaşaların baxış festivalları keçirilir. Bu il artıq 4-cü baxış festivalını keçirdik. Onu da qeyd etməliyəm ki, laboratoriyalarda hazırlanan tamaşalarda iştirak edənlər arasında qeyri-peşəkarlar, peşəkarlardan çoxdur. Onlar teatrı sevən, teatra xidmət etmək istəyən insanlardırlar. Belə insanlar həmişə olub, bu gün də var. Sevindirici haldır ki, TXİ-nın artıq öz tamaşaçıları var. Bizim tədbirlərə və tamaşalara maraq böyükdür. Bizim tədbirlərə və tamaşalara həm sənət adamları, həm də qeyri sənət adamları məmnuniyyətlə gəlib, qiymətli vaxtlarını bizə ayırırlar. Buna görə onlara minnətdarıq.

***- Hacı müəllim, müsahibim olaraq, Azərbaycan Teatr Xadimləri İttifaqının fəaliyyəti və uğurları haqqında oxucularımıza ətraflı məlumat verdiyiniz üçün sizə minnətdaram. Sizə gələcək fəaliyyətinizdə daha böyük nailiyyətlər arzulayırıq. Çox sağ olun.***

- Mən də sizə minnətdaram. Siz də sağ olun.

***Müsahibəni apardı: Teatrşünas Çingiz Ələsgərli***

# Xaricdəki "söyüş müxalifəti" arasında qarşıdurma yaranıb

## *Trol Sadıqlı: "Əvvəllər bunu etmişəm. Lakin düşünürəm ki, səhv etmişəm"*

Azərbaycan öz iqtisadi- sosial inkişafı, mütərəqqi demokratik quruculuğu, hərbi, siyasi qüdrəti ilə dünyanın ən güclü dövlətlərindən olduğunu nümayiş etdirir. Təbii olaraq əldə olunan uğurlar dostlarımızı sevindirir, düşmənin bağrını yarır. Milli və dövlətçilik maraqlarına düşmən kəsilən AXCP sədri Əli Kərimli, "Milli Şura"nın rəhbəri Cəmil Həsənli, "Milli Şura"nın üzvü Gültəkin Hacıbəyli, AXCP-nin trolları olan Seymur Həzi, Fuad Qəhrəmanlı, xaricdəki antimilli ünsürlər və digərləri düşmən yanında yer alıb, Azərbaycana qarşı qarayaxma kampaniyası aparır, qazanılan nailiyyətlərə kölgə salmağa çalışırlar. Bu məxluqlar cəmiyyətdə mövcud olan milli birliyimizə xələl gətirmək, insanlar arasında çaşqınlıq yaratmaq, beynəlxalq aləmdə ölkəmiz haqqında mənfi rəy formalaşdırmaq üçün hər cür əxlaqa zidd vasitə və üsullardan istifadə edirlər. Bəzən şübhəli məqamlar yaranır ki, bu üzüdönüklər Ermənistanın xüsusi xidmət orqanlarının sifarişlərini yerinə yetirilər. Bəlkə də bu faktı inkar edərlər. Deyə bilərlər ki, ortaya sübut, dəlil qoy. Əgər ölkəmizin iç məsələlərini sosial şəbəkələr vasitəsi ilə ictimailəşdirilərsə və özlərinə yaxın saytlar da dövlətimizin atributlarını təhqir edirlərsə, deməli dolayısı ilə erməni agentura şəbəkəsinə işləyirlər. Əsas o deyil ki, xüsusi xidmət orqanları ilə əməkdaşlıq sazişi imzalayıb, üzərinə konkret öhdəliklər götürəsən. Düşmən ölkənin istək və maraqlarına uyğun fikirlər səsləndirmək, dövlətinin əleyhinə statuslar paylaşmaq birbaşa agentura şəbəkəsinə işləmək deməkdir. Nəzərə almaq lazımdır ki, dəfələrlə terror dövləti olan Ermənistanın KİV-ləri Əli Kərimlinin, C.Həsənlinin, xaricə qaçıb oradan Azərbaycan əleyhinə təhqirlər yazana, statuslar paylaşan azərbaycanlı mühacirlərin açıqlamalarını geniş forma da tirajlayıblar.

### Trol Sadıqlı təsir altında olduğunu etiraf etdi

Xaricdəki antimilli ünsürlərin bəziləri gec də olsa erməni lobbisinə işləməyin onlar üçün o qədər də uğurlu olmadığını anlamağa başlayıblar. Bu baxımdan da bəzi azərbaycanlı "söyüş müxalifət" təmsilçiləri erməni lobbisinin yaratdığı və maliyyələşdirdiyi şə-



bəkəni tərk edir. Deyilənlər və yazılanlar bir qədər mübahisə doğursa da hər hal da qeyd olunur ki, antmilli ünsürlərin fəal söyüş söyənlərindən hesab olunan Trol Sadılı şəbəkədən ayrıldığını bəyan edib. Hətta T.Sadıqlı bu barə də özünün "Azad söz" internet kanalında fikirlər də səsləndirb. Deyib ki, etdiyi satqınlığa və xəyanətə görə peşman olub: "Mən kimlərinsə hansısa öz maraqları üçün niyyətlərində yer almaq istəməmişəm. İdarəçiliklə bağlı problemlər varsa, onlar Azərbaycan xalqının öz problemidir. Onu özümüz həll etməliyik. Şəxsən mən utanıram, bir ecnəbiyə idarəçiliklə bağlı şikayətlənim. Mənim xaricdə belə etirazım varsa, düşünürəm ki, bu etirazı öz dilimizdə, öz hakimiyyət nümayəndəmizə etməliyəm və edirəm. Baxmayaraq ki, alman, ingilis, rus, ərəb dillərində danışıram və bunu etməyə imkanlarım da var. Əvvəllər bunu etmişəm. Lakin düşünürəm ki, səhv etmişəm".

Göründüyü kimi trol səhvini etiraf edir, lakin çirkin əməlinə görə üzr istəməyə tələsmir. Yəqin ki, açıqladığı peşmançılıq xarakterli fikirlərinə Azərbaycandakı dağıdıcı müxalifətin və xaricdəki "söyüş müxalifəti"nin necə reaksiya verəcəyini gözləyir. Məhz fikirlərinə yanaşmalara uyğun Trol Sadıqlı nəticə çıxarıb, sonrakı mərhələ üçün mövqeyini bildirəcək. Hələlik isə onu demək olar ki, istər daxildə ki, istərsə də ki, xaricdə ki, şəbəkə üzvləri əqidə yoldaşlarının səhvini etiraf edib geri çəkilməsini normal hal olaraq dəyərləndirmək istəmirlər. AXCP sədr müavini Fuad Qəhrəmanlı Trol Sadıqlının peşman olub, geri addım atmasını onun qorxaqlığı kimi qiymətləndirib. Xaric də küllüklər də, bəzən isə zibilliklər də eşələnən mühacir jurnalist Əfqan Muxtarlı Trol Sadıqlının etirafını yanlışlıq adlandırıb: " Bu səhvi etiraf etməklə düzəltmək mümkün deyil. Düşünürəm Tural bəy siyasi mühacir statusundan imtina edib vətənə dönməlidir. Daxili problemləri orda daha yaxşı müzakirə edə bilər". Keçmiş müsavatçı Əfqan Muxtarlı Trol Sadıqlını hədələməyi də unutmayıb. Dolayısı ilə bildirib ki, T.Sadılı Azərbaycanda bəzi şəxsləri jantaj etməklə onlardan pul alıb: "Bir bloger şantaj yolu ilə Azərbaycanda yaşayan bir şəxsdən 270 min avro alıb. Əlimdə konkret sənədlər olmadığı üçün ad çəkə bilmirəm. Amma Almaniya prokurorluğuna göndərilən sorğuma cavab gələn kimi dərc edəcəm. Bax şantaj etmək yalnız səhv deyil həm də cinayətdir. Xüsusən Avropada bunu bağışlamırlar".

### Əfqan Muxtarlının Trol Sadıqlını hədələməsi təsadüfi deyil

F.Qəhrəmanlının və Ə.Muxtralının Trol Sadıqlını hədələmələri onu deməyə əsas verir ki, T.Sadıqlı səhv əməlinə görə üzr istəməyəcək. Faktlarla onu rüsvay edəcəklərini anladığından yenidən ənənəsini davam etdirəcək. Onu da nəzərə almaq lazımdır ki, Ə.Muxtralı "bir bloger Azərbaycanda bir şəxsi jantaj etməklə ondan 270 min avro alıb" deyərkən söz yox ki, T.Sadıqlıya işarə edir. Bu ittihamın çox ağır olduğunu T.Sadıqlı anlayır. Dərk edir ki, Ə.Muxtarlı və digər şəbəkənin üzvü olan mühacirlər əlavə məlumatlar açıqlasalar o artıq Avropada qala bilməyəcək. Məcbur olacaq ki, Azərbaycana qaçsın. Azərbaycanda isə onu haqqında qaldırılan cinayət işinə görə, hüquq-mühafizə orqanları gözləyir. Ona görə də, əminliklə demək olar ki, Trol Sadılı antimilli ünsürlərin təmsil olunduqları şəbəkənin bütün tələblərini və şərtlərini qəbul edəcək və əski fəaliyyətinə qayıdacaq.

**İLHAM ƏLİYEV**

# "Azərbaycanla İran arasında münasibətlərin qorunması olduqca vacibdir"

"Azərbaycan-İran münasibətlərində yeni mərhələni inkişaf etdirmək bölgənin rifahına töhfə olar". Bu sözləri SİA-ya açıqlamasında deputat Könül Nurullayeva deyib. O bildirib ki, İran İslam Respublikasının Prezidenti İbrahim Rəisinin faciəli şəkildə həlak olması Azərbaycanı da dərindən sarsıtdı: "Təsadüfi deyil ki, İ.Rəisinin helikopterinin qəza enişi etməsi ilə bağlı xəbər yayılan kimi bu məsələyə ilk reaksiya verən Azərbaycan Prezidenti oldu. Dövlət başçımız məsələ ilə bağlı hər cür dəstək verməyə hazır olduğunu bəyan etdi. Ötən gün başsağlığı məqsədilə İran səfirliyində olan Prezident İlham Əliyev eyni zamanda bu faciəni bütövlükdə müsəlman aləminin faciəsi kimi qiymətləndirdi.



Helikopter qəzasından əvvəl mərhum prezident İ.Rəisi ilə iki saatdan artıq danışıqlar aparan dövlət başçımız bir daha mayın 19-da baş tutan bu tarixi görüşü xatırladtı və dövlət sərhədində böyük infrastruktur layihəsinin açılışında birgə iştirakın İran-Azərbaycan əlaqələrinin möhkəmliyinin göstəricisi olduğunu bildirdi. Əldə olunmuş razılaşmaların İranın yeni rəhbərliyinə çatdırılması və onların icra edilməsi hər iki tərəf üçün olduqca əhəmiyyətlidir.

Həmin tarixi görüşdə İran-Azərbaycan əlaqələrinin inkişafının gələcək istiqamətləri bir daha təsdiqlənmişdi və hər iki tərəfin güclü siyasi iradəsi bir daha nümayiş etdirilmişdi".

"Araz çayı üzərində inşa edilmiş "Xudafərin" hidroqovşağının istismara verilməsi və "Qız Qalası" hidroqovşağının açılış mərasimində dövlət başçıları çox vacib mesajlar vermişdilər. Liderlər birgə müzakirələri yenidən nəzərdən keçirmişdilər. Hər iki ölkənin əsas hədəfi birlik və dostluğun sarsılmazlığını təmin etmək, münasibətlərə kölgə salmaq cəhdlərini zərərsizləşdirməkdən ibarətdir. Azərbaycan Prezidentinin bəyan etdiyi kimi, bölgənin inkişafı regiondakı ölkələrdə yaşayan xalqların iradəsi ilə təmin olunmalıdır. Rəsmi Tehran isə Bakı ilə əlaqələri qonşuluq əlaqəsindən daha üstün hesab edir. Mərhum Prezident İ.Rəisi bu münasibətləri qohumluq əlaqəsi adlandırmışdı. Verilən mesajlar da göstərirdi ki, Bakı və Tehran əməkdaşlığı bütövlükdə bölgənin sabitliyi üçün önəmli faktordur. Bunu nəzərə alaraq, hər iki ölkə bölgənin sabitliyi, gələcək təhlükəsizlik tədbirlərinin gücləndirilməsi üçün bütün beynəlxalq təşkilatlarda bir-birinə bundan sonra da dəstəyi davam etdirmək niyyətini də ortaya qoymuşdu.

Azərbaycanla İran arasında münasibətlərin qorunması olduqca vacibdir. Məlumdur ki, 2-ci Qarabağ savaşı başa çatdıqdan dərhal sonra Azərbaycan yeni əməkdaşlıq formatları təklif etdi. 3+3 formatı siyasi, təhlükəsizlik və iqtisadi baxımdan mühüm əhəmiyyət kəsb edir. Rəsmi Tehran da bu platformanı problemlərin müzakirəsi üçün ən effektiv regional platforma hesab edir. Ümumiyyətlə, regionun məsələsini region dövlətləri həll etməlidir. Məlumdur ki, iyun ayında İranda yenidən prezident seçkiləri keçiriləcək. Ümid edirik ki, bundan sonra da Bakı ilə münasibətlərin normal inkişafı Tehranın xarici siyasətində prioritet istiqamət olacaq. Bundan sonra həm ikitərəfli, həm çoxtərəfli formatda böyük layihələrin icrası hər iki tərəf üçün faydalı olar" - deyə o, əlavə edib.

**Söylü Ağazadə**

# "Azərbaycan özünün ən şanlı tarixlərindən birini yaşayır"

"Azərbaycan özünün ən şanlı tarixlərindən birini yaşayır". Bu sözləri SİA-ya açıqlamasında deputat Aydın Mirzəzadə deyib. Deputat sözlərinə belə davam edib: "Torpaqlarımız işğaldan azad edildən və bütün ərazi üzrə suverenliyimiz bərpa edildikdən sonra işğaldan azad edilən ərazilərin kommunikasiyasının yenilənməsi, yeni yaşayış məntəqələrinin tikilməsi nəticəsində ilk məcburi köçkün ailələri öz dədə-baba torpaqlarına geri qayıdırlar. Artıq Şuşaya ilk yerli insanların qayıtması baş tutdu. Cənab Prezident çıxışlarında dəfələrlə bildirir ki, ilin axırına qədər 27 yaşayış məntəqəsində 20 minə qədər insan öz dədə-baba torpağına qayıdacaq. Bu böyük tarixi bir hadisədir.




Azərbaycan öz müstəqilliyini və suverenliyini bu proseslərdə də parlaq şəkildə göstərə bildi. Baxmayaraq ki üstümüzə basqılar çox idi, baxmayaraq ki işğalçı Ermənistanı dəstəkləyənlər, işğal altında olan torpaqların Ermənistanda qalmasına çalışan xarici qüvvələr var idi. Amma Azərbaycan qalib gəldi. Ulu Öndər Heydər Əliyevin siyasi kursuna bağlı olduğuna görə, cənab Prezidentimizin daxili və xarici siyasətinin dəstəklədiyinə görə qalib gəldi. Bu qalibiyyət özünü bütün sahələrdə, o cümlədən işğaldan azad olunan ərazilərimizdə həyatın canlanması ilə gündəmdədir və bu uğurlarımızın ildən-ilə çox olacağı gözlənilir.

Bu günlərdə Şuşada keçirilən "Xarıbülbül" festivalı Azərbaycanın dünya birliyində yüksək nüfuzundan xəbər verdi. ICESCO-nun rəhbərliyinin ayrı-ayrı ölkələrin musiqi mədəniyyət nümayəndələrinin və kollektivlərinin festivalda iştirakı Azərbaycana böyük məhəbbətin göstəricisi oldu. Təsadüfi deyil ki, Bakı və Naxçıvandan sonra artıq Şuşa İslam mədəniyyət paytaxtı elan olunur. Bu ada layiq olduğunu Şuşa günbəgün sübut edir. Azərbaycan özünün qalibiyyətini, özünün güclü dövlətçiliyini bütün sahələrdə o cümlədən Qarabağa qayıdış sahəsində də müntəzəm olaraq göstərməkdədir".

**Ayşən Vəli**

# Virtual dünya real dünyaya qalib gələrsə...

***Biz könüllü köləlik dövründə yaşayırıq. İndi hamımız real yox, virtual dünyanın sakinləriyik. Çünki virtual dünyaya girdikdən sonra onun reallığı sizin reallığınıza çevrilir. Beləliklə, virtual dünya real həyatımıza nüfuz edir və bizi ssenarisini özü yazdığı tamaşanı nümayiş etdirən teatr kuklalarına çevirir.***




## Virtual dünyada insan qalmaq çətinləşir

Hamının əlindəki telefona, qarşısındakı kompyuterə baxdığı bir dövrdə heç kim real fikir mübadiləsi aparmır, ənənəvi yolla sosiallaşmır. Ancaq bizi insan edən şeylərdən biri də məhz sosiallaşmaq, ünsiyyət saxlamaq, münasibət qurmaqdır. Əks halda robotdan nə fərqi olar ki insanın?

Texnologiyanın zərərli təsirləri, təhlükələri, faydaları - bütövlükdə insan həyatına təsiri danılmazdır. Bəs bu təsir bizə nə verir, bizdən nə alır? Hər gün bir az da nəhəngləşən virtual dünya insanı insane olmaqdan bir az da uzaqlaşdırır. Bu sualın cavabına amerikalı psixoloq, zəka nəzəriyyəçisi Hovard Qardner deyir: "Bu virtual dünya gələcəkdə həyatı asanlaşdıra bilər, lakin insan qalmaq o qədər də asan olmayacaq. Bəlkə kompüterlər və süni intellekt bizə kömək edəcək, bəlkə də əksinə, bizi insanlıqdan uzaqlaşdıracaq. İnsan qala bilmək, yaxşı işlər görmək insanlar üçün o qədər də asan olmayacaq".

Yaxın gələcəkdə insanlar kompyuter və süni intellekt vasitəsi ilə başqa bir insanın beynini oxuya biləcək, fikirlərini anlayacaq. Üstəlik bu tək insanlara tətbiq edilməyəcək, heyvan beynindən gələn siqnallar da oxunmağa çalışılacaq. Süni intellekt daha da yaradıcı və ağıllı olacaq. Bütün bunlar yəqin ki, insan zəkası ilə müqayisədə uçurum yaradacaq. İnsanlar kədərlənəndə, acıqlananda, kompleks edəndə keçirdiyi hissləri süni intellekt hələ ki ifadə edə bilmir, amma yaxın gələcəkdə bunun baş verməyəcəyinin qarantı yoxdur. Yəni bizi hələ çox dəyişiklik gözləyir.



## Süni intellekt işimi əlimdən ala bilərmi?

Süni intellektin bir çox peşədə insanları əvəzləyəcəyi ehtimalı çoxdandır ki, var idi. Yaxın gələcəkdə süni intellektin veb-dizayner, loqo dizayneri, satış nümayəndəsi və auditor kimi peşələrdə insanları tamamilə əvəz etməsi də mümkündür, indi biz bunun nisbətən sadə imkanlarla tətbiqini görürük. Təbii ki, bunun birdən-birə baş verəcəyini gözləməməliyik. Çünki bəzi vərdişlər hələ dəyişilməyib, insan yerinə robotu qəbul etmək cəmiyyət üçün o qədər də asan olmayacaq. Lakin bir vaxtlar banka getmədən əməliyyatlar da mümkün deyildi, amma indi bir mobil tətbiqlə bütün bank əməliyyatlarımızı edə bilirik.



Süni intellekt həyatımızı asanlaşdırmaq üçün bir çox imkanlar təqdim etsə də, özü ilə bir çox riskləri də həyatımıza daxil etdi. Xüsusilə də iş dünyasında süni intellektin görə biləcəyi saysız-hesabsız işlər insanın əlindən alına bilər. ABŞ-da aparılan yeni bir araşdırma gələcəkdə insanları süni intellektlə əvəzləyəcək bir çox peşə sahibini narahat etdi. Maraqlıdır, süni intellekt hansı peşə sahiblərinin çörəyinə bais olacaq?

Süni intellekt vasitələrinin yalnız insanların edə biləcəyi düşünülən mürəkkəb tapşırıqları yerinə yetirmək qabiliyyəti heyranedicidir. Son aylarda mediada süni intellektin imtahan verdiyi və yaxşı bal topladığı, proqram təminatı istehsal etdiyi və bəzi həssas məsləhətlər verdiyi xəbərləri də yayıldı. Üstəlik, süni intellektin bacardığı sahələrin siyahısına hər gün yenisi əlavə olunur. Texnologiyanın bu qədər inkişafı, süni intellektin hazırkı performansı bəziləri üçün qorxulu sual da doğurur: Süni intellekt mənim işimi əlimdən ala bilərmi?

## 20 peşə təhlükədədir

ABŞ-ın Prinston Universitetinin araşdırması süni intellektin insanları əvəz edə biləcəyi 20 peşəni açıqlayıb. Peşələr arasındakı ən birinci yerdə çağrı mərkəzi operatorudur. Süni intellektin operatorluğu hətta insandan daha yaxşı bacardığı iddia edilir. Əslində, bir çox şirkətin bu iş üçün indi də süni intellektlə dəstəklənən "chat-bot"lardan istifadə etdiyini nəzərə alsaq, bu nəticə təəccüblü deyil.



Tədqiqatçılar əvvəlcə 800 adda iş yerinin süni intellekt tərəfindən avtomatlaşdırıla bilmə dərəcəsini ölçən bir alqoritm yaratdılar. Bu prosesdə tərcümə, dil modelləşdirmə və görüntü yaratma kimi funksiyaları olan 10 süni intellekt dəstəkli proqram vasitəsi ilə başa salma və reaksiya vermə kimi özəlliklər əsas götürülərək süni intellektlə insan arasında müqayisə aparıldı. Nəticədə iş yükünün böyük hissəsinin süni intellekt texnologiyası tərəfindən həyata keçirilə biləcəyi ən yaxşı 20 iş müəyyən edildi. Bunların bir çoxu aktuar hesabat, büdcə təhlili, mühasibatlıq və hakimlik də daxil olmaqla əsaslı təlim tələb edən işlərdir.

## Süni intellektin ilk hədəfi müəllimlərdir

Süni intellektin öz üzərinə götürəcəyi işlər siyahısında ən çox müəllim peşəsi yer tutur. Xarici dilləri, fəlsəfə və dini, siyasi elmləri, psixologiyanı, coğrafiyanı, sosial elmləri, hərbi hazırlığı, tarixi, hüquq elmlərini tədris edən müəllimlər, etnik və mədəni araşdırma edən araşdırmaçılar, kitabxanaçılar işi əlindən alınacaq ilk insanlar olacaq.

Müəllimlik peşəsinin məşğulluq potensialının əvvəlki qədər yüksək olmaya biləcəyini ehtimal edən araşdırmaçılar hesab edir ki, müəllimlik özlərini təkmilləşdirmək istəməyən peşələrdən ən birincisidir. Amma imkanların bərabər olmadığı mühitdə müəllim özünü nə qədər təkmilləşdirsə də, nəticə istədiyi kimi olmur - ya məhdud imkanı olur, yaxud da təkmilləşməsi ona əlavə gəlir vermir. Süni intellekt isə öz xidmətini təklif edərkən sizə tez öyrənmək, rahat təkrarlamaq, anlamadığınız mövzularda əlavə mənbələrə əlçatanlıq və ya həmin mənbələrin xülasəsini oxumaq şansı verir.

Süni intellekt müxtəlif şirkətlərdə satış, marketinq və ünsiyyət kimi prosesləri öz üzərinə götürməyə başlayıb. Süni intellektdən istifadə etmək istəyənlərin qarşısında iki yol olacaq. Biz ya onun imkanlarından istifadə edərək bacarıqlarından üstün bacarıq göstərib yaradılışın ən zəkalı varlığı olduğumuzu sübut edəcəyik, ya da ona təslim olub bacarıqlarımızı əlimizdən verəcəyik.

## Həm faydalı, həm təhlükəli

Qeyd edək ki, süni intellektin insan həyatına böyük üstünlüklər və rahatlıq gətirəcəyinə dair yanaşmalar da var. Bu texnologiyanın iş həyatına müsbət təsirlərini sadalayan bu cür yanaşmalarda bildirilir ki, süni intellekt iş proseslərində səmərəlilik, edilə biləcək səhvlərin azaldılması, müştəri təcrübəsinin təkmilləşdirilməsi, peşə olaraq yeni imkanların inkişafı, problemin həllinə yanaşmaların təkmilləşdirilməsi, daha yaxşı alqoritm yanaşması kimi imkanlar verəcək.

İnsanlar sürətlə virtuallaşdıqca fərqində olmadan gələcəkdə öhdəsindən gələ bilməyəcəkləri bir rəqib yetişdiriblər. İnsan faktoru olmadan zəkanın fövqəlbəşəri səviyyədə təqdim edilməsi insanın uğurudur. Bununla belə, süni intellektin yaxın gələcəkdə zərərli məqsədlər üçün istifadə oluna biləcəyi ehtimalı da narahatlıq doğurur. Ümumiyyətlə, süni intellektin mənfi təsirlərinim ümumiləşdirsək bura texnologiya və avtomatlaşdırma səbəbindən insanlar tənbəl olacağını, işsizlik səviyyəsinin artmasını, hazır bilgidən istifadə etdicə insanın yaradıcılığının azalacağını, insani hiss və duyğuların texnoloji üstünlüyə məğlub olmasını, süni neyroşəbəkələrdən istifadə edərək mövcud videodakı şəxsin başqasının ilə əvəzlənməsini və bunun nəticəsində fırıldaqçılıq, aldatma, cinayət hallarının artmasını aid eləmək olar.

İdrak qabiliyyətimizi, məhsuldarlığımızı, yaradıcılıq bacarımızı çox az göstərdiyimiz yaxud heç göstərə bilmədiyimiz bütün işlər bir gün süni intellektə keçəcək. Ancaq bu transfer prosesi ictimaiyyətin qəbula görə uzun və ya qısa olacaq. Başlanğıcda insan əvvəlcə müqavimət göstərəcək, lakin sonra maşınla əməkdaşlıq edəcək. İnsan əvvəlcə onu yenidən öyrənməyə məcbur edəcək və onu rahatlıq zonasından çıxaracaq hər şeyə qarşı müqavimət göstərir və üsyan edir.

Dünya dəyişmək uğrunda amansız bir mübarizə aparır. Hər gün yenilənir, "refresh" olur. Ümid edək hər şey yaxşılığa doğru dəyişəcək. Həyata davam edə bilməyimiz üçün virtual aləmə ayaq uydurmalıyıq. Əgər virtual dünya real dünyaya qalib gəlsə heç nə indiki kimi olmayacaq.

***Lalə Mehralı***




# "Azərbaycanın əsas gündəliyi yaşıl enerjidir"



"Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayan Azərbaycan yaşıl enerji ilə bağlı da iddialı layihələrlə çıxış edir. Bütövlükdə, Azərbaycan hökuməti 2030-cu ilə qədər enerji tələbatının 30 faizini bərpa olunan mənbələr hesabına ödəməyi qarşısına məqsəd qoyub". Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Azər Kərimli deyib. Deputat bildirib ki, bərpa olunan enerji iqlim məqsədlərinə nail olmaq üçün ən perspektivli həlli təklif edir: "Azərbaycan 2030-cu ilə qədər istixana qazı emissiyalarını 35%, 2050-ci ilə qədər isə 40% azaltmağı öhdəsinə götürüb. "Yaşıl" enerjinin istehsalı və dünya bazarına nəqli Azərbaycanın enerji siyasətinin prioritet istiqamətlərindən biridir.COP29-a ev sahibliyi etmək bütün dünyaya nümayiş etdirəcək ki, ölkənin əsas neft və qaz istehsalçısı olmasına baxmayaraq, Azərbaycanın əsas gündəliyi yaşıl enerjidir.

Yaşıl enerjinin yaradılması və yaşıl enerjinin dünya bazarlarına nəqli hazırda enerji siyasətimizdə prioritet məsələdir. Ölkəmiz sözügedən tədbirə ev sahibliyi etməklə ətraf mühitə verdiyi önəmi, daha geniş mənada gələcək nəsillərə sağlam dünya ötürməyə qayğı göstərdiyini göstərir. Bu gün Azərbaycan da digər ölkələr kimi ekoloji problemlərdən əziyyət çəkir. 30 ilə yaxın ərazilərimizin işğalı, minlərlə hektar meşələrin yandırılması və məhv edilməsi, işğal zamanı çaylarımızın, su anbarlarımızın çirklənməsi ümumi ekoloji vəziyyətə son dərəcə mənfi təsir göstərib. Azərbaycan Prezidenti ölkəmizin işğaldan azad edilmiş torpaqlarını Yaşıl Enerji Zonası elan edib. Məqsəd 2050-ci ilə qədər bu əraziləri "xalis sıfır emissiya" zonalarına çevirməkdir.Azərbaycanın bütün bölgələrində, o cümlədən işğaldan azad edilmiş Kəlbəcər və Ağdərə rayonlarında geotermal və günəş enerjisi ehtiyatları, Laçın, Qubadlı və Zəngilan rayonlarında su enerjisi mənbələri, Şuşa, Xocavənd və Cəbrayıl rayonlarında külək enerjisi, həmçinin Tərtərdə bioenerji ehtiyatları mövcuddur. Onların səmərəli istifadəsi nəticəsində ölkəmiz "yaşıl" enerjinin istehsalçısı və istehlakçısına çevrilə bilər. Hazırda Xəzərin su ehtiyatları tədricən azalır.

Bu həm ekoloji, həm də iqtisadi problemlər yaradır. Xəzərin geri çəkilməsi indiki kimi davam edərsə, məsələn, "Orta Dəhliz"də yerləşən ölkələr kommunikasiya layihələri ilə bağlı ciddi problemlərlə üzləşəcəklər. Çünki bu mühüm transmilli layihə Xəzər dənizindən keçir. Dənizin geri çəkilməsinin əsas səbəblərindən biri də Xəzər dənizinin əsas su mənbəyi olan Volqa çayında suyun azalmasıdır. Belə ki, COP29 çərçivəsində keçiriləcək tədbirlərdə həm dünyanın, həm də Azərbaycanın ekoloji problemləri diqqətə çatdırılacaq və müzakirə ediləcək. COP29 Azərbaycan və Qazaxıstandan Qara dəniz vasitəsilə Avropaya yaşıl enerji layihəsinin həyata keçirilməsini də sürətləndirə bilər".

***Səbinə Hüseynli***

# "AXCP həmişə olduğu kimi yenə də öz repertuarında qalmaqdadır"

"Milli Məclisin növbədənkənar sessiyasının çağırılmasının növbədənkənar parlament seçkilərin keçiriləcəyi ilə bağlı səslənən fikirlərlə heç bir əlaqəsi yoxdur". Bu sözləri SİA-ya açıqlamasında deputat Azər Badamov deyib.O bildirib ki, Milli Məclisin gündəliyində müzakirə olunmalı qanun layihələri qalanda növbədənkənar sessiya çağırılır və həmin qanun layihələri müzakirəyə çıxarılır: "Parlament seçkilərinin keçirilməsi üçün isə azad və demokratik mühit formalaşdırılıb. Bu baxımdan bu günlərdə keçirilən Prezident Administrasiyası ilə ölkəmizdə qeydiyyatdan keçmiş 26 siyasi partiyadan 25-nin nümayəndələri ilə görüşü də ölkəmizdə yaranmış siyasi dialoq mühitinin göstəricisidir. Görüşdə siyasi partiyaların rəhbərlərinə onları düşündürən məsələləri gündəmə gətirməyə və həmin məsələlər ətrafında müzakirələr aparılmasına imkan yaradıldı. Təbii ki, siyasi dialoq sayəsində siyasi baxışları müxtəlif olan partiyalar arasında ölkənin siyasi mühitinin inkişafı istiqamətində mühüm addımlar atılmışdır".Onun sözlərinə görə, məhz yaranmış yeni siyasi konfiqurasiyasının və əldə olunan siyasi dialoq sayəsində dövlətin milli maraqları ilə bağlı məsələ gündəmə gələndə siyasi partiyalar öz siyasi baxışlarını kənara qoyaraq vahid mövqedən çıxış edə bilirlər: "Amma çox təəssüf ki, AXCP həmişə olduğu kimi yenə də öz repertuarında qalmaqdadır. Belə ki, ölkədə siasi dialoqla bağlı keçirilən tədbirlərə qoşulmur və keçirilən siyasi proseslərə bağlı qabaqcadan heç bir əsasa söykənməyən fikirlər səsləndirir. Birinci qeyd etmək istəyirəm ki, siyasi partiyanın başlıca məqsədi siyasi proseslərdə iştirak etmək və hakimiyyətə sivil yollarla gəlmək üçün seçkilər vasitəsilə mübarizəyə qoşulmaqdan ibarətdir.



AXCP isə kənarda dayanıb ölkəmizdəki azad və demokratik şəraiti tənqid etməklə aparılan hər bir seçki prosesinə kölgə salmağa və öz sifarişçilərinin tapşırıqlarını icra etməklə məşğuldur. Həm də sərbəst toplaşmaq haqqında qanunun tələblərinin pozulmasında hakimiyyəti günahlandırır. AXCP-ni idarə edənlər bir mənalı anlamalıdırlar ki, demokratiya anarxiya deyil. Demokratik cəmiyyət də qanunlarla idarə olunur. O cümlədən Azərbaycanda hüquqi dövlət qurulub və bütün hərəkətlər qanunla tənzimlənir. Qanundan kənar hərəkətlər isə məsuliyyət yaradır. Bu baxımdan "Sərbəst toplaşmaq haqqında" qanunda ictimai toplanışlar ancaq icazə verilmiş yerlərdə keçirilməlidir. Əgər dövlətin müvafiq qurumları qanunun bu tələblərini AXCP-dən də tələb edirsə, bu necə qanun pozuntusu ola bilər? Radikal olmaq heç də dövlətin və xalqın uğurlarını həzm edə bilməmək olmamalıdır. Azərbaycanda seçkilər prosesi azad və demokratik şəkildə keçiriləcək və seçkidə iştirak edərək siyasi mübarizəyə qoşulacaq hər bir siyasi partiya xalqın etimadını qazanacağı təqdirdə parlamentdə təmsil oluna biləcəkdir".

***Söylü Ağazadə***



## FELYETON

## Vay, görməmiş halımıza...

**O günü getmişdim "zoo" mağazalardan birinə. Gördüm bir dədə-bala həkimə yalvarır ki, nə edirsən, et, bu xamyakı qurtar. Ata həkimə deyirdi ki, bu ölsə, qızım da öləcək. 16-17 yaşda olan qız da gözünün yaşını axıdır, xamyakın ağız-burnundan öpürdü ki, bu, neçə gündür yerindən tərpənmir, yemirİçmir, bəs bu ölsə, mən də öləcəm.**

Sıçanı görcək, uşaqlığım yadıma düşdü, istədim qaçam bayıra, dedim, ağır ol, gör qız onu necə basıb bağrına, elə bu dəqiqə oradan çıxıb sənin əl-ayağına toxunmayacaq ki... Nə isə, özümü sıxıb durdum.

Ata həkimə israrla: - a kişi, nə bilirsənsə, buna et, dayanma. Bu uşaq gecə bununla birlikdə yatır, birlikdə yeyir, birlikdə içir. Həkim də sağ olsun, əlindən gələni etdi. Dedi ki, narahat olmayın, ta buna ölüm yoxdur, sağalacaq.

Qız gözünün yaşını sildi, xamyakı öpdü, bağrına basdı, atası da dedi ki, ay bala, inşallah, sağalar, ta ağlama. Nə isə, mağazadan əlavə dava-dərman alıb getdilər... Səhərdən bəri ayı armuda baxan kimi bunları seyr edən mən başladım özümü söyüb rüsvay etməyə. Dedim, kül başına, ay görməmiş...

Həqiqətən, biz çox görməmiş olmuşuq. Adam fikirləşəndə bilmir utansın, yoxsa özünə nifrət etsin. Əşi, sıçan-siçovul nə idi ki, biz ondan qorxurduq, iyrənirdik? Elə ki, hiss etdik ki, döşəməni gəmirib çıxıb otağa, hoppanırdıq masanın üstünə, ta ki, dədəmiz onu tutub evdən rədd etməyənə kimi. Əgər tuta bildisə, hə, aşağıya enirdik, yox, tuta bilmədisə, əlimizə yaxşı bəhanə keçirdi, ta qalırdıq masanın üstündə, düz gecə dədəmiz tələ qurub, gecə yarısı sıçanı tələyə salanadək.

O vaxt nənəmizin taxçası vardı, ora çörəyi dəstələyib yığırdı. Hələ bir də sıçan-siçovulu o taxçanın ətrafında görəndə, nənəyə xəbər verirdik, yazıq arvad bir gün yesir olub təndirdə qonşularla bişirdiyi bir təlis unun çörəyini əzib mal-heyvana verirdi ki, artıq buna sıçan dəyib...

Elə nənə də avam imiş ey... Camaat sıçan-siçovulla bir qabdan yemək yeyir, qucağından yerə qoymur, onunla yatır, onunla qalxır, dodağından öpür, bizsə bu bədbəxt heyvanı gərəndə göyə qalxır, ruzimizi əzib mal-heyvana verirdik.

Doğrudan da, görməmiş olmuşuq ey... O sıçan, bu sıçan, o siçovul, bu siçovul, onların əməlinə-taleyinə bax, bunlarınkına bax... Ay dədə, ay nənə, haradasınız, gəlin, görün, sizin bəyənmədiyiniz sıçan-siçovul nə qədir-qiymətdə, nə hörmətdədir...

Vay, görməmiş halımıza!

***Mətanət Məmmədova***

# Böyük Qayıdış:

## Cəbrayıla yenidən həyat qayıdır

*Şəhərə ilin sonuna kimi 712 ailənin köçürüləsi planlaşdırılır*




Azərbaycan Ordusu Vətən müharibəsinin başlandığı 2020-ci il 27 sentyabr tarixində Cəbrayıl rayonunun Böyük Mərcanlı və Nüzgar kəndləri, 3 oktybar tarixində Mehdili, Çaxırlı, Aşağı Maralyan, Şəybəy və Quycaq kəndləri, 4 oktyabr tarixində Cəbrayıl şəhərini və rayonun 9 kəndini - Karxulu, Şükürbəyli, Çərəkən, Daşkəsən, Horovlu, Mahmudlu, Cəfərabad, Yuxarı Maralyan və Decal kəndlərini işğaldan azad etdi. Cəbrayıl rayonunun ərazisində aparılan hərbi əməliyyatlar nəticəsində ümumilikdə 1 şəhər (Cəbrayıl) və 80 kənd işğaldan azad edildi. Erməni vandalları bütün işğal altındakı şəhər və kəndlərimiz kimi Cəbrayıl rayonun maddi-mədəni abidələrini talayıb məhv etmişlər. Doğtumas kəndinin yaxınlığında yerləşən "Divlər Sarayı" mağarası, Qalacıq kəndindəki "Məscid Təpəsi", "Canqulu" və "Qumtəpə" kurqanları, Diri dağındakı Mazannənə, Mərmər nənə məqbərələri kimi arxeoloji, Doğtumas kəndindəki "Başıkəsik Gümbəz", Sirik kəndindəki "Qala", Diri dağındakı "Qız qalası", Xudafərin körpüləri, Çələbilər kəndindəki Məscid kompleksi, rayon mərkəzindəki "Sultan Məcid hamamı", Şıxlar kəndindəki "Dairəvi Türbə", Xubyarlı kəndindəki "Dairəvi" 8 guşəli türbələr və məqbərələr, türk qəbiristanlığındakı türbə və məqbərələrin hər biri işğal zamanı məhv edilmiş və ya dağıntıya məruz qalmışdır.




İşğaldan sonra Cəbrayıl rayonundan olan məcburi köçkünlər respublikanın 58 rayonunun 2000-dək yaşayış məntəqəsində, o cümlədən qaçqın düşərgələrində, yük vaqonlarında və yataqxanalarda məskunlaşmışlar. İşğaldan azad edilmiş torpaqlara "Böyük Qayıdış" Cəbrayıldan başlamışdır. 5 yanvar 1994-cü il tarixində Horadiz əməliyyatı zamanı Cocuq Mərcanlı kəndi işğaldan azad edilmişdi. Strateji yüksəkliklər işğalçılardan azad olunandan sonra Cocuq Mərcanlıya həyatın qayıtması artıq mümkün olmuşdur. Cocuq Mərcanlıya qayıdış Böyük Qayıdışın başlanğıcı idi. 2016-cı il aprel döyüşləri zamanı Azərbaycan Ordusunun əks hücumu nəticəsində Lələtəpə yüksəkliyi də işğaldan azad edilmişdi. Azərbaycan Ordusunun bu uğurları bizi Böyük Qələbəyə daha yaxın etmişdir. İşğaldan azad edildikdən sonra Cəbrayılda bərpa və quruculuq işlərinə başlanmışdır. "Araz Vadisi İqtisadi Zonası"nın yaradılması bütün regionun, o cümlədən Cəbrayıl rayonunun inkişafı üçün önəmli hadisədir.



Qeyd edək ki, Prezident İlham Əliyev mayın 18-də Cəbrayıl rayonunun Böyük Mərcanlı, Karxulu, Sarıcallı və Maşanlı kəndlərinin təməlini qoyub. Azad edilmiş digər rayonlarımızın sakinləri kimi, cəbrayıllılar da ikinci nəfəs verilmiş doğma yurdlarına qayıdacaqları günü səbirsizliklə gözləyirlər və o günün uzaqda olmadığına inanırlar. Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri İlhamiyyə Rzayeva jurnalistlərə açıqlamasında bildirib ki, Birinci mərhələdə Cəbrayıl rayonunun Böyük Mərcanlı, Karxulu, Sarıcallı və Maşanlı kəndlərinə ümumilikdə 3 min 193 sakin köçürüləcək: "Birinci mərhələdə Böyük Mərcanlıya 542 nəfərin köçürülməsi üçün 149 fərdi ev tikiləcək. İnşa ediləcək evlər iki, üç, dörd və beş otaqlı olacaq. Baş plana əsasən kəndin ümumi sahəsi 362 hektar təşkil edir. 2040-cı ilədək 6230 nəfər əhali üçün 1074 fərdi ev və bir neçə mərtəbəli yaşayış binaları layihələndirilib. Burada inzibati bina, klub-icma mərkəzi, çoxfunksiyalı bina, idman və ailə-sağlamlıq mərkəzləri, mərasim evi, bazar kompleksi və digər qeyri-yaşayış obyektlərinin tikintisi nəzərdə tutulur. Həmçinin Böyük Mərcanlı kəndində əhalinin tələbatına uyğun olaraq iki məktəb və beş uşaq bağçası inşa olunacaq. 2026-cı ilədək dövrü əhatə edən "Böyük Qayıdışa dair I Dövlət Proqramı"na müvafiq olaraq, birinci mərhələdə layihələndirilən ərazinin sahəsi 41 hektardır".



Prezident İlham Əliyev bir neçə gün əvvəl təməlini qoyduğu Karxulu kəndinə gəlincə, bildirilib ki, 2040-cı ilədək kəndin layihələndirilən ərazisi 313 hektar təşkil edir və bu müddət ərzində kənddə 4428 sakin üçün 940 fərdi ev və bir neçə mərtəbəli bloklu evlərin layihələndirilməsi, eləcə də tikintisi nəzərdə tutulur. Kənddə inzibati bina, klub-icma, ailə və idman sağlamlıq mərkəzləri, ticarət və məişət xidməti binası, kiçik sahibkarlıq obyektləri inşa olunacaq. Bundan başqa, Baş plana müvafiq olaraq, kənddə əhalinin tələbatına uyğun iki tam orta məktəb və dörd uşaq bağçası tikiləcək. 2026-cı ilədək dövrü əhatə edən "Böyük Qayıdışa dair I Dövlət Proqramı"na müvafiq olaraq, birinci mərhələdə layihələndirilən ərazinin sahəsi isə 125 hektardır. Bu mərhələdə 691 sakin üçün 145 fərdi evin layihələndirilməsi və tikintisi nəzərdə tutulub. Həmçinin, Sarıcallı kəndinin baş planında ümumi sahəsinin 330 hektar təşkil etdiyini də vurğulayıb: "Burada inzibati bina, klub-icma, ailə və idman sağlamlıq mərkəzləri, ticarət və məişət xidməti binası, yanğınsöndürmə deposu, aqrotexniki park, mərasim evi, kənd bazarı, kiçik sahibkarlıq obyektləri tikiləcək. Bundan başqa, əhalinin tələbatına uyğun iki tam orta məktəb və 4 uşaq bağçasının layihələndirilməsi də nəzərdə tutulur. Ümumiyyətlə, bu yaşayış məntəqəsində əhalinin məşğulluğunun təmin edilməsi də diqqət mərkəzində olacaq. "2026-cı ilədək dövrü əhatə edən "Böyük Qayıdışa dair I Dövlət Proqramı"na müvafiq olaraq, birinci mərhələdə layihələndirilən ərazinin sahəsi isə 104 hektardır. Bu mərhələdə kəndə 1 016 sakinin köçürülməsi üçün 242fərdi ev inşa olunacaq".

Qeyd edək ki, 2040-cı ilədək Maşanlı kəndinin layihələndirilən ərazisi 157,54 hektar nəzərdə tutulub. Həmin müddətdə kənddə 2360 sakin üçün 590 fərdi evin layihələndirilməsi, eləcə də tikintisi planlaşdırılır. Kənddə əhalinin məşğulluğunun təmin edilməsi üçün də hər cür şərait yaradılacaq. Bu kənddə də inzibati bina, klub-icma, idman sağlamlıq mərkəzləri, həkim məntəqəsi, mərasim evi, bazar kompleksi, ticarət, ictimai-iaşə, kiçik sahibkarlıq obyektlərinin layihələndirilməsi planlaşdırılır. Baş plana əsasən, kənddə tam orta məktəb üçün bina və iki uşaq bağçasının tikintisi nəzərdə tutulub. "Böyük Qayıdışa dair I Dövlət Proqramı"na əsasən burada məskunlaşacaq əhalinin yaşayış yükü nəzərə alınaraq, kəndin salınmasının birinci mərhələsi üçün 50 hektar yer ayrılıb. Bu mərhələdə 944 sakin üçün 236 fərdi ev tikiləcək.

Onu da vurğulayaq ki, Cəbrayıl şəhərinə keçmiş məcburi köçkünlərin qayıtması ilə bağlı işlər sürətlə davam etdirilir. Şəhərin coğrafi mövqeyi və relyefi də onun yaşıllıqlara qərq olmuş məkan kimi planlaşdırılmasına imkan verib. Baş plana əsasən, yaşıllıqların ümumi sahəsi 110 hektar təşkil edəcək. Bununla da şəhər ərazisinin 18 faizi yaşıl zonalardan ibarət olacaq. Əhalinin əsas istirahət zonası olaraq Çaylaqçay ətrafında salınması təklif edilən "yaşıl zolaq" mərkəzi park kimi müxtəlif mədəni tədbirlərin keçirilməsi üçün əhalinin açıq məkanlara çıxışını təmin edəcək. Şəhərə ilin sonuna kimi 712 ailənin köçürüləsi planlaşdırılır.

***Sevinc Azadi***

# Şizofreniya: məlumatlı olaq, anlayaq, yanılmayaq...

***Həyatda heç kim başına gələcəklərdən xəbərdar deyil. Belə isə hər an hansı bir xəstəliksə çağırılmamış qonaq olaraq qapımızı döyə, yuxarı başa keçib əyləşə, ömrümüzə qanaq ola bilər. Elə bu gün haqqında danışacağımız şizofreniyadan da heç kim təminatlı deyil. Ona görə də bu xəstəliyin daşıyıcıları haqqında məlumatlı olmaqla, anlamaqla və bəzi yanlış fikirlərə aydınlıq gətirməklə onlara düzgün yanaşa, münasibət qura bilərik.***

24 May- Dünya Şizofreniya Günüdür. Ümumdünya Şizofreniya Gününün qeyd olunmasında məqsəd bu xəstəlik haqqında maarifləndirmə, xüsusilə şizofreniya və ümumilikdə bütün psixiatrik xəstəliklərlə bağlı mif və mövhumatlarla mübarizə aparmaq, insanlara düzgün məlumat verməkdir. Bu xəstəlik Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, dünyada 21 milyon insanı əhatə edir.



### Şizofreniya nədir?

Şizofreniya psixiatrik- düşüncə prosesindəki problemlər və zəif, emosional cavablarla xarakterizə olunan əqli xəstəlikdir. Ümumi simptomlar paranoid, eşitmə hallüsinasiyaları, nitqdə əks olunan düşüncə pozğunluğu və əqli çatışmazlığın da daxil olduğu yanılmalardır.

İlkin səciyyəvi simptomlar gənc yaşlarda özünü göstərir. Diaqnoz müşahidə olunan davranışlara və xəstənin şikayət etdiyi təcrübələrə əsaslanır. Genetik faktor, ətraf mühit, nevrobiologiya, psixi və sosial proseslər köməkçi amillər hesab olunur. Bəzi reseptsiz və ya reseptlə istifadə edilən dərmanlar da simptomların artmasına, çoxalmasına səbəb ola bilər. Heç bir izolyasiya edilmiş üzv tapılmasa da, hazırki araşdırmalar nevrobiologiya üzərində cəmləşib.



Şizofreniya əlamətlərini üç sahədə təsnif etmək olar: Birincisi müsbət əlamətlər adlanan hallüsinasiyalar, hezeyanlar və nitqin pozğunluğu, ikincisi nitqin olmaması, introversiya, mat sifət ifadəsi və fəaliyyət üçün motivasiyanın olmamasıdır ki, bunlara mənfi əlamətlər deyilir. Üçüncüsü isə idrak simptomları adlanan diqqət və yaddaş kimi bacarıq sahələrindədir. Şizofreniya xəstəsi olan bir şəxsdə simptomlar hər üç sahədə baş verə bilər və ya daha sıx simptomlar əsasən bir bölgədə müşahidə oluna bilər.

### Şizofreniyanın yaranma səbəbləri

Şizofreniya əsasən 20 yaşda başlayır və cinsiyyət, irq, din, milli və ya ölkəyə görə ayrı-seçkilik etmir. Ümumiyyətlə, dünyanın demək olar ki, hər yerində əhalidə təxminən 1% tezliyi ilə müşahidə olunur. Səbəbi dəqiq bilinməsə də, irsi və ətraf mühit faktorlarının təsirli olduğu məlumdur. Şizofreniya xəstələrinin beyin hüceyrələri arasında əlaqəni təmin edən bəzi maddələrin miqdarı, quruluşu və ya funksiyasındakı pozuntular yuxarıda qeyd olunan simptomlara səbəb olur.

Şizofreniya xəstəliyinin müalicəsində dərman preparatları, fərdi və qrup psixoterapiyaları, təlimlər, müxtəlif reabilitasiya proqramları və xəstənin ehtiyaclarına uyğun olaraq ailə müdaxilələri planlaşdırılaraq istifadə edilir. Ancaq bütün bu müalicələrdən başqa, şizofreniya xəstəsi olan insanın və ailəsinin də digər fərdlər kimi anlaşılması və cəmiyyətə daxil edilməsi və qəbul edilməsi lazımdır. Müalicəyə ən böyük maneə bu xəstələrə fərqli baxışdır.



Stiqma, psixi xəstəlik, etnik mənsubiyyət, narkomaniya və ya fiziki qüsur kimi xüsusiyyətlərə əsaslanaraq bir şəxsin və ya qrupun qüsurlu və ya nüfuzdan düşmüş kimi mənfi qiymətləndirilməsidir. Şizofreniya xəstəsi damğalanmaya görə cəmiyyətdən fərqli olaraq qəbul edilir və bu fərqliliyə bir çox mənfi mənalar aid edilir. Stiqma bir çox insana, qrupa və ya cəmiyyətə təsir etsə də, uzun illərdir ki, ən çox damğalanan şəxslər psixiatrik xəstəlikləri olan fərdlər olub və təəssüf ki, şizofreniya xəstələri onların arasında ön sıralarda olub. Stiqma şizofreniya xəstələrinin psixiatrik və ümumi tibbi müalicəsinə, iş tapmasına, ailə qurmasına, sosial dəstək çevrəsinin yaradılmasına və təhsil almasına əngəl törədir.

### Stiqmanı dağıtmağa başlamalıyıq

Biz öz zehnimizi, sonra dilimizi və davranışımızı dəyişdirməklə stiqmanı dağıtmağa başlamalı, sonra bu dəyişikliyi cəmiyyəti təşkil edən digər fərdlərdə alovlandırmağa çalışmalıyıq. Buna nail olmaq üçün ilk növbədə şizofreniya ilə bağlı mifləri dağıtmalıyıq. Bəs əsas miflər nədir?

Türk Nöropsikiyatri Dərnəyi "Şizofreniya bir beyin xəstəliyidir. Müalicə maraqlanmaqla, dəstəklə sağala bilir. Gəlin birləşək, mifləri qıraq və həqiqəti yayaq" devizi ilə şizofreniya bu xəstəlik haqqında mifik təfəkkürü yox etməyə çalışır. Yanlış olanları göstərməklə insanların çox halda səhv fikirdə olduqlarını sübut edir.

### Şizofreniya xəstəsi olan insanlar həmişə təhlükəlidirlər: YANLIŞdır

Şizofreniya xəstəsinin həmişə təhlükəli olacağı fikri qərəzdir. Şizofreniya xəstələri müalicə altında olduqları müddətdə cəmiyyətin digər üzvlərindən daha təhlükəli deyillər. Xəstəliyin alovlandığı dövrdə aldatma və və sair təsirlərə görə dağıdıcı davranış riski bir qədər artsa da, bu vəziyyətin daha gənc yaş və ya spirt və narkotik istifadəsi ilə də əlaqəli ola biləcəyi bildirilir. Çoxlu uşaq və insanın ölümünə səbəb olan müharibə, qəza, terror hücumlarının şizofreniya xəstəsi olmayan fərdlərdən qaynaqlandığı unudulmamalıdır.

### Şizofreniyalı fərdlər fərqli zamanlarda fərqli şəxsiyyətlərlə olurlar: YANLIŞdır



Şizofreniya xəstələri cəmiyyətin digər üzvləri kimi bir şəxsiyyətdir və özünəməxsus xüsusiyyətlərə malikdirlər. Şəxsiyyət xüsusiyyətləri həyat boyu əhəmiyyətli dərəcədə dəyişməyə meylli deyil. Fərddə zaman-zaman fərqli şəxsiyyət nümunələrinin müşahidə edilməsi şizofreniyada görülən bir vəziyyət deyil.

### Şizofreniya sağalmaz bir xəstəlikdir: YANLIŞdır

Şizofreniya üçün ilk dərman 1950-ci illərdə tapıldı və bu gün şizofreniyanın müalicəsi üçün çoxlu müxtəlif dərman variantları mövcuddur. Təbii ki, digər tibbi xəstəliklərdə olduğu kimi, hər bir xəstənin müalicəyə reaksiyası fərqli və unikaldır. Xəstələrin əksəriyyəti müalicədən faydalanır.

### Şizofreniya xəstələri həyatları boyu işləyə bilməzlər: YANLIŞdır

Şizofreniya xəstələrinin əksəriyyətinin münasib iş imkanları təmin olunduqda işləyə bildiyi və işləməyin xəstəliklə mübarizədə müsbət təsiri olduğu məlumdur. Stiqma, şizofreniya xəstəsi olan şəxslərin tapıb işlə təmin olunmasında ən böyük maneələrdən biridir. Təəssüf ki, cəmiyyətdə təkcə şizofreniya xəstələrinə deyil, fiziki qüsurlu şəxslərə qarşı da bu mənfi qərəz var.

### Şizofreniya yoluxucu bir xəstəlikdir: YANLIŞdır

Şizofreniyanın genetik (irsi) aspekti var, lakin xəstəliyin başlanğıcı üçün təkcə genetik meyl kifayət deyil. Stressli hadisələrin (doğum travmaları, ana bətnində müəyyən infeksiyalara məruz qalma, miqrasiya, uşaqlıqda çətinliklər, mənfi həyat hadisələri) və genetik meylin birlikdə təsirli olduğu bir xəstəlikdir. Yoluxuculuq yalnız virusların, parazitlərin və ya bakteriyaların yaratdığı xəstəliklərdə baş verən bir vəziyyətdir və şizofreniya yoluxucu deyil.

### Onlara anlamağa çalışaq!

İnsan bir sosial varlıq olaraq ancaq mənsub olduğu cəmiyyət daxilində qəbul olunmaqla, başa düşülməklə, sevilmək və hörmət olunmaqla, dostluqlar, cəmiyyətin digər üzvləri ilə ünsiyyət qurmaqla, dinlənilməklə və danışmaqla tam şəkildə mövcud ola bilər. Cəmiyyətin bəlkə də ən çox damğalanmış fərdləri arasında olan şizofreniya xəstələri və ailələri yuxarıda qeyd etdiyimiz kimi, miflərin gətirdiyi stiqma səbəbi ilə insan təbiəti üçün son dərəcə zəruri olan sosial dəstək sistemindən məhrumdurlar. Bu məhrumiyyətlər onları və ailələrini təcrid edir, onların ruhi və fiziki rifahına mənfi təsir göstərir, iş tapmasına, həyatlarını davam etdirməsinə mane olur.

Onlar cəmiyyətin bir fərdidir. Və biz onlara qayğı ilə yanaşmağa borcluyuq. Elə 24 maydan-onların günündən başlayaraq əvvəlcə şizofreniyadan xəbərdar olaq. Sonra bu xəstəliyi düzgün başa düşək. Daha sonra gözümüzün önünü kəsmiş böyük mifləri məhv edək. Məhz bu zaman həqiqəti anlaya, yanılmaya bilərik.

Heç kim yaşana biləcəklərdən xəbərdar deyil. Odur ki, ətrafımızdakı bütün xəstələr kimi, şizofreniyalı xəstələrə də dostcasına yanaşaq, bu, onlara böyük dəstək ola bilər.

***Mətanət Məmmədova***

# Yeni Kaledoniya - "Fransa demokratiyası"nın gerçək üzü!

**Fundamental insan hüquqlarının tapdanması müasir dövr müstəmləkəçiliyinin ən ağır təzahürüdür. Müstəmləkəçi Qərb ölkələri demokratiyanı və insan hüquqlarının qorunmasını özlərinin fundamental prinsipləri kimi bəyan etsələr də təəssüf ki, neokolonializmi davam etdirməklə insan hüquq və azadlıqlarına, ümumiyyətlə, məhəl qoymurlar. Sirr deyil ki, neokolonializmin ən bariz nümunəsi Fransanın timsalında təzahür edir. Bu ölkədə insan hüquq və azadlıqlarına münasibət birmənalı şəkildə fərqli standartlara əsaslanır.**



Fransanın Əlcəzairdə, Polineziyada, Korsikada, Melaneziyada törətdiyi soyqırımı aktları, Afrika, Cənub Şərqi Asiya, Sakit Okean, Latın Amerikasında onlarla ölkənin işğal edilməsi və insanların kütləvi şəkildə qətlə yetirilməsi, şəhər və kəndlərin xarabazarlığa çevrilməsi Fransanın dövlət siyasətinin əsası olub. Təkcə Əlcəzair Fransa müstəmləkəçiliyinə qarşı yüz ildən artıq döyüşüb. Əlcəzairdə bir milyondan çox insanın etnik təmizlənməyə məruz qalması, qətlə yetirilməsi, bu ölkədə nüvə silahlarının sınaqlarının keçirilməsi üçün ərazilərin çirkləndirilməsi və beş milyondan artıq minanın basdırılması məhz rəsmi Parisin bəşəri cinayətləridir. Həmin basdırılan minaların xəritəsi bu gün də Əlcəzair hökumətinə təqdim edilməyib. Baxmayaraq ki, Əlcəzair 60 ildən artıqdır ki, rəsmi Parisin müstəmləkəsindən azad olub. Son vaxtlar Əlcəzairlə Yeni Kaledoniya tarixində oxşar cəhətləri müqayisə edirlər. Belə ki, Yeni Kaledoniyanın azadlıq mücadiləsinə qarşı rəsmi Parisin aqressiv davranışı Əlcəzairdə törətdiyi qırğınlara bənzədilir.





Yeni Kaledoniya adası uzun illərdir ki, Fransanın müstəmləkəçilik siyasətindən əziyyət çəkir. Sahəsi 19 min kvadratkilometr olan ərazi Sakit okeanın cənub-qərb hissəsində adalardan ibarətdir. 268 min nəfərdən çox əhalisi olan ada 1853-cü ildən Fransanın müstəmləkəsi altındadır. Fransa digər ərazilərdə olduğu kimi, burada da insanların azadlıq çağırışına məhəl qoymur, onların haqlarını kobud şəkildə tapdalayır.



Son günlər bu ölkədə Fransanın kolonializm siyasətinə qarşı etirazlar özünün pik həddinə çatıb. Yerli kanak xalqı özlərinin bildirdikləri kimi, müstəmləkəçiliyə qarşı son və qəti mübarizəyə qalxıblar. Bu dəfə yerli icmanın səbrinin daşmasına səbəb isə Fransanın müstəmləkəçilik siyasətinin hüquqi çərçivələrini genişləndirmək məqsədilə konstitusiya dəyişikliklərinə cəhd göstərməsidir. Artıq bununla bağlı Fransa parlamentində qərar qəbul olunub.

Mövcud olan konstitusiyaya düzəlişlər edilməsi təklifinin yeganə məqsədi Yeni Kaledoniyada aboregen xalqın hüquqlarını məhdudlaşdırmaq, bunun əksinə olaraq gəlmə fransızların hüquqlarını genişləndirməkdir. Belə ki, sözgedən düzəlişlərin nəticəsində Yeni Kaledoniyada 10 ildən çox yaşayan fransızlar səsvermə hüququna malik olacaq. Bu da yerli əhalinin diskriminasiyasına gətirib çıxarır. Təqribən 300 minə yaxın əhalisi olan yerlilərə qarşı qanunların qəbul olmasında bu kimi vasitələrdən istifadə edilməsi məqbul hesab edilmir. Bununla yanaşı, 1998-ci ildə Fransa ilə Yeni Kaledoniyanın müstəqillik hərəkatı arasında imzalanmış Numea sazişinə əsasən adada təxminən 42 min nəfər, yeni seçicilərin hər beşindən biri səsvermə hüququndan məhrum edilib. Fransızlara səsvermə hüququnun verilməsi seçici siyahısını önəmli şəkildə artırır. Bu da Yeni Kaledoniyanın müstəqilliyi uğrunda çıxış edən indiki hökuməti dekabrda keçiriləcək seçkilərdə mübarizədən kənarda qoya bilər. İstənilən halda Yeni Kaledoniya Konqresi Fransanı düzəlişi geri götürməyə çağıran bir qətnamə qəbul edib və təklif qəbul edilmədiyi üçün yerli əhali etirazlara başlayıb. Fransa adadakı vəziyyətə görə Yeni Kaledoniyaya əhali üzərinə qoşun yeridib. Artıq günlərdir ki, davam edən etirazlar zamanı 200-dən çox şəxs saxlanılıb. Yeni Kaledoniya hakimiyyəti Fransanın Sakit Okeandakı dənizaşırı ərazisinin paytaxtında baş verən iğtişaşlar nəticəsində dəymiş ziyanı ilkin olaraq 150 milyon avro qiymətləndirib.

Göründüyü kimi, Fransa demokratik dəyərlərə münasibətdə də məhz ikili standartlardan çıxış edir. Toplaşma azadlığı, siyasi plüralizm, ifadə azadlığı kimi anlayışlar unudulur, dinc nümayişlər amansızlıqla dağıdılır, insanların hüquqları kobud şəkildə pozulur. Bu ölkə mətbuatı öz əlində tutmaq, yalnız Fransadan gətirilən təbliğat vasitələrini yaymaq, yerli mətbuatın inkişafını məhdudlaşdırmaq siyasəti aparır. Bu gün Yeni Kaledoniyada əhaliyə dəyən zərərlər Fransa mətbuatında ustalıqla gizlədilir.

Amma Fransa tərəfindən digər ölkələrə münasibətdə dərhal demokratiya, insan hüquqları məfhumları ortaya atılır, Avropa dəyərləri, liberal hüquqlar yada düşür. Bu da həmin anlayışların, sadəcə, təzyiq vasitəsi kimi istifadə olunduğunu sübut edir. Nəticə etibarilə özünü dünyaya "demokratiya nümunəsi" kimi təqdim edən Fransanın vətəndaşların hüquq və azadlıqlarına münasibəti aydındır. Belə olan halda, demokratik siyasi sistemə malik olduğunu bildirən, dünyaya "demokratiya" dərsi keçməyə çalışan Fransa hansı haqla və ya əsasla demokratik dəyərlərdən və insan hüquqlarından bəhs edir?

Bu ölkə hər fürsətdə Azərbaycana qarşı qarayaxma kampaniyası aparır, əsassız iddialar irəli sürür. Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidmətinin rəhbəri Ayxan Hacızadə Fransanın daxili işlər naziri Jerald Darmananın mayın 16-da "France-2" telekanalına müsahibəsində Azərbaycana qarşı səsləndirdiyi iddiaları cavabsız qoymayıb. Ayxan Hacızadə bildirib ki, Jerald Darmananın ölkəmizə qarşı və Azərbaycanla Yeni Kaledoniyanın müstəqillik tərəfdarlarının liderləri arasında iddia olunan münasibətlərə dair səsləndirdiyi növbəti əsassız fikirləri tamamilə rədd edirik.

Fransa daxili işlər nazirinin öz ölkəsinin uzun illər həyata keçirdiyi müstəmləkəçilik siyasətinin tərkib hissəsi kimi yerli xalqlara qarşı insanlıq əleyhinə cinayətlər törətməsini, milyonlarla günahsız insanın vəhşicəsinə qətlə yetirilməsi tarixini xatırlaması daha münasib olardı.

Bununla yanaşı, Fransanın daxili işlər naziri Azərbaycanı Yeni Kaledoniyada müstəqillik tərəfdarlarının etirazlarını dəstəkləməkdə ittiham etmək əvəzinə, ölkəsinin bu cür etirazlara səbəb olan dənizaşırı bölgələri ilə bağlı uğursuz siyasətinə diqqət yönəltməlidir. A.Hacızadə qeyd edib ki, biz bir daha Fransanı ölkəmizə qarşı əsassız iddiaları dayandırmağa çağırırıq. Dolayısı ilə, bu ölkənin "demokratiya dərsi" keçməyə, "demokratik tövsiyə"lər verməyə heç bir mənəvi haqqı yoxdur.

Qeyd edək ki, kanak xalqının kəskin etirazları beynəlxalq səviyyədə güclü şəkildə dəstəklənir. O cümlədən Azərbaycan Fransanın neonkolonist siyasətinin ifşa olunmasında fəal rol oynayır və bu ölkənin işğal etdiyi dənizaşırı ərazilərin kolonializmdən azad olmasına yaxından dəstək verir. Bu istiqamətdə Bakı Təşəbbüs Qrupunun aktiv və məqsədyönlü fəaliyyətlərini xüsusi qeyd edə bilərik.

Qurumun Yeni Kaledoniyada kanakların həbs olunmasına və mülki şəxslərə qarşı zorakılığa dair bəyanatında bildirilir ki, ictimai toplantıların qadağan edilməsi və müstəqillik tərəfdarlarının həbsi bu məsələnin davamlı həlli hesab edilə bilməz. Fransa Senatı və Milli Assambleyası Yeni Kaledoniyada qanunsuz konstitusiya dəyişikliklərini dayandırmalıdır. Təklif olunan dəyişikliklər məqsədyönlü şəkildə seçki elektoratını qeyri-kanaklar hesabına artırmaq məqsədi daşıyır. Bu da öz növbəsində haqlı olaraq insanların narazılığına, habelə etiraz və nümayişlərinə səbəb olub.

Qeyd edək ki, bu gün Bakı Təşəbbüs Qrupu ilə birlikdə Fransanın son koloniyaları olan Yeni Kaledoniya, Maohi Nui (Fransız Polineziyası), Fransız Qvianası, Martinik, Qvadelupa və Korsikadakı müstəqillik uğrunda mübarizə aparan 14 siyasi hərəkat da birgə Bəyanat yayıb. Bəyanata qoşulanlar həyəcan təbili çalaraq, BMT Təhlükəsizlik Şurasını toplaşaraq Fransa tərəfindən beynəlxalq hüququn pozulmasının pislənilməsini tələb ediblər.

Həmçinin Fransa hökumətinin Yeni Kaledoniyada seçki kütləsinin genişləndirilməsi lehinə qanunsuz dəyişikliyin zorla tətbiq edilməsi pislənilib, müstəqillik uğrunda ədalətli mübarizəsində kanak xalqına tam dəstək ifadə olunub.

Sənəddə Yeni Kaledoniyanın bu gün alov içində olması, o cümlədən son günlər ərzində həbslərin və qətlə yetirilmələrin məsuliyyətinin Fransa hökumətində olduğu qeyd olunub: "Kanak xalqının öz müqəddəratını təyinetmə hüququnu tapdalayan "insan hüquqları ölkəsi" adlanan Fransa dövlətinin Kanak xalqını öz torpağında azlıqda qoymaq üçün seçki elektoratını genişləndirmək məsələsindəki məqsədli istəyi mövcud vəziyyətin pisləşməsinə səbəb olur".

Birgə Bəyanatda Fransaya müstəmləkə siyasətini dayandırmağa və Kanak xalqına öz taleyini sərbəst həll etməyə, beynəlxalq ictimaiyyətə isə Kanak xalqının azlığa çevrilməsinə aparan bu iyrənc müstəmləkəçilik təcrübəsinə göz yummamağa çağırış edilib.

***Nigar Orucova***

# Ekoloji təmiz məhsul nədir?



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə Ekologiya və ətraf mühitin mühafizəsi istiqaməti çərçivəsində hazırlanıb*



**Ekoloji cəhətdən təmiz məhsullar geniş mənası olan bir termindir. Əgər məhsul təbiətə, ətraf mühitə, insan sağlamlığına və ya heyvan sağlamlığına zərər vermirsə və təkrar emal oluna bilən xüsusiyyətlərə malikdirsə, qablaşdırması təbiətdə asanlıqla torpağa qarışan materialdandırsa ekoloji cəhətdən təmizdir. Buna görə də bu məhsullar təbii maddələrdən hazırlanır.**

Ekoloji cəhətdən təmiz məhsul canlılara zərərli olmayan məhsullardır. Məhsulların qablaşdırmasına əlavə edilən bu etiket istehlakçıların rahat seçiminə kömək edir. Lakin hər məhsula bu etiketi əlavə etmək olmur, bunun üçün ətraf mühitə səmərəliliyini ölçmək, səlahiyyətli orqan tərəfindən testlər edilməlidir. Brendin məhsulları bu testlərdən keçərsə, "ekoloji təmiz" etiketini ala bilər.

Tullantıların istehsalını azaldan və təkrar emal edilə bilən məhsullar ekoloji cəhətdən təmiz məhsullar kimi tanınır. Belə məhsullar təbiətə zərər vermir. Onlar planetimizin enerjisini və təbii ehtiyatlarını qoruyurlar. Ekosistemə mənfi təsir göstərməyən ekoloji cəhətdən təmiz məhsullar planetimizi qorumaq üçün idealdır. Ekoloji cəhətdən təmiz brendlər həm dünyamızın qoruyucuları, həm də etik dəyərlərin müdafiəçiləridir.

Ekoloji cəhətdən təmiz həyat günümüzün ən çox müzakirə edilən məsələsidir. Qlobal istiləşmə və ətraf mühitin çirklənməsinin artması nəticəsində insanlar dünyanın təhlükə altında omasının fərqində deyil. Ekoloji məhsullar ekoloji cəhətdən təmiz həyat tərzi yaşamaq istəyən insanlar üçün əvəzolunmazdır. Ətraf mühitə uyğun, təbiətlə təmasda olaraq təbii həyat tərzi keçirmək istəyirsinizsə, gündəlik həyat vərdişlərinizi dəyişə bilərsiniz. Kiçik vərdişlərinizi dəyişdirərək ekoloji cəhətdən təmiz bir həyat yaşaya bilərsiniz.

Ekoloji təmiz məhsul həm qida, həm geyim, həm də digər istehlak məhsulları ola bilər. Ekoloji geyim məhsulları ətraf mühiti çirkləndirməyən və təkrar emal edilə bilən məhsullardır. İstehlakçıların sağlamlığını qorumaq üçün təbii parçalardan və təbii materiallardan hazırlanmış geyimlərin ətraf mühitə mənfi təsiri yoxdur. Müasir moda sənayesində müxtəlif cür dizayn edilmiş ekoloji təmiz məhsullar fərqli xüsusiyyətlərə malikdir. Ekoloji cəhətdən təmiz geyimlər pambıq, bambuk, banan ipəyi,





spinnova, çətənə lifləri, ipək, ananas lifləri və yun kimi materiallardan hazırlanır. Ekoloji cəhətdən təmiz paltar istehsal edərkən, tərkibində zərərli kimyəvi maddələr istifadə edilmir.

Qida rejimimizi dəyişməklə də təbiəti qoruya bilərik. Məsələn, əti rasionumuzdan çıxarmaqla və ya azaltmaqla. Çünki ət istehlakı hər il milyonlarla heyvanın tələf olmasına səbəb olur. Ekoloji cəhətdən təmiz həyat tərzini mənimsəmək üçün ət istehlakını tamamilə dayandırmaq olar, yaxud müəyyən qədər azaltmaq da mümkündür. Birləşmiş Millətlər Təşkilatının araşdırmasına görə, insanların təbiətə buraxdığı karbon qazı və zərərli istixana qazlarının 9 faizini heyvandarlıq təsərrüfatları yaradır. Üstəlik, ət istehlakının azaldılması sizin sağlam olmağınıza və pula qənaət etməyinizə kömək edəcək.

Ət əvəzinə göbələk, soya, paxlalılar, yaşıl mərcimək, yumurta, qozfındıq, badımcan və yarma istehlak edə bilərsiniz, bu ərzaqların tərkibi ətin tərkibi ilə eyni olmaqla yanaşı daha çox qida dəyəri ehtiva edir.

Plastik torbalar və plastik qablaşdırma kimi məhsulların ətraf mühitə zərərləri barədə çox yazılır. Araşdırmalara görə, plastikin əriyərək təbiətdə yox olması üçün 1000 il vaxt lazımdır. Bu qədər uzun müddət təbiətdə qalan və ətraf mühitə zərər verən bu zəhərli maddələrdən heç vaxt istifadə edilməməlidir. Plastik torbalar və plastik qablaşdırma yerinə kətan çantalar və ya parça alış-veriş çantalarından istifadə edə bilərsiniz.Marketlərin sellofan torbaları pullu etməsi, daha sonra qulpsuz paketlərə keçid də təbiəti qorumaq məsdəi daşıyır. Çünki şəffaf torbaların pulsuz olması bir çox alıcıda arxayınlıq yaradır və ehtiyacı olduğundan daha çox istehlak edir. Lakin qulpsuz olması istifadəni məhdudlaşdırdığı üçün istehlakı da nisbətən azalır, beləcə ekologiya üçün təhlükəsi də minimuma enmiş olur.

Hər gün işə, məktəbə getmək üçün avtomobildən istifadə etmək yerinə piyada, yaxud da ictimai nəqliyyatla getmək də təbiəti qorumaq deməkdir. Qısa məsafələrə piyada və ya velosipedlə getmək karbon istehsalını azaltmağa xidmət edir. Tıxacın mütəmadi müşahidə edildiyi Bakı kimi bir şəhərdə bu qərarı verməklə həm öz sağlamlığınızı, həm planetimizi, həm də büdcənizi qorumuş olursunuz.

Evdə enerji səmərəliliyini artırmaq üçün də müəyyən tədbirlər görmək olar. Bərpaolunmayan enerji mənbələrini lazım olduğundan çox istismar etməmək üçün istifadə etmədiyiniz cihazları söndürün. Paltaryuyan, qabyuyan maşınlar, işıqlandırma elementləri və kondisionerlər alarkən onların A +++ kateqoriyalı olmasına əmin olun. Enerjiyə qənaət edən cihazlar bahalı olsa da, elektrik enerjisinə qənaət etmə xüsusiyyətinə görə daha sərfəlidir. Daha davamlı və ekoloji cəhətdən təmiz cihazlar enerji və suya qənaət edir və beləcə ətraf mühitin qorunmasına siz də kömək etmiş olursunuz.

Bundan əlavə, evinizi izolyasiya etsəniz, enerjiyə qənaət edə, dolayısı ilə təbiətə fayda vermiş olarsınız. İzolyasiya edilsə eviniz ideal temperaturda qala bilər və yolla ekoloji cəhətdən təmiz bir həyat tərzi keçirə bilərsiniz. Əgər maddi imkanınız və fərdi eviniz varsa, evin damına günəş panelləri də quraşdıra bilərsiniz. Beləliklə, elektrik enerjisi üçün pul xərcləməyəcək, günəş enerjisindən faydalana bilərsiniz.



***Lalə Mehralı***

# Qanunsuz mərc oyunlarının təşkili və reklamının cəzası nədir?



## HÜQUQŞÜNAS AYDINLIQ GƏTİRDİ

”Qeyri-qanuni mərc oyunlarında və qumar oyunlarında iştirak hüquqi məsuliyyət də yaradır. Yəni, sadəcə təşkilatçılar deyil, qumar oynayanlar da məsuliyyət daşıyır. Bu tələb virtual məkanda təşkil edilən oyunlardakı iştiraka da aiddir”. Bu sözləri SİA-ya açıqlamasında Hüquqi-Sosial Yardım və Maarifləndirmə İctimai Birliyinin sədri Fariz Əkbərov deyib. Fariz Əkbərov sözlərinə belə davam edib: ”İnzibati Xətalar Məcəlləsinin 401-ci maddəsi ”Qumar oyunları” adlanır və həmin maddədə aşağıdakı hərəkətlərin edilməsi inzibati məsuliyyət yaradır:

- Azərbaycan Respublikasının ərazisindən qumar oyunlarında iştirak üçün imkanların yaradılması, o cümlədən qumar oyunlarının oynanıldığı virtual mühitə çıxışın təmin edilməsi;

- Qumar oyunlarında iştirak üçün biletlərin (və ya biletə bərabər tutulan digər iştirak hüququnun) satışının təşkili və (və ya) satışı;

- Qumar oyunlarında iştirak üçün mərclərin qəbul edilməsi, pul vəsaitlərinin, əşyaların və qeyri-maddi əmlak nemətlərinin qəbulu, köçürmələrin aparılması, uduşların ödənilməsi, uduşların, mükafatların və ya digər gəlirin verilməsi, bunların təşkili və bunlarla əlaqədar xidmətlərin göstərilməsi;

- Qumar oyunlarının təşkili, keçirilməsi, iştirak üçün biletlərin (və ya biletə bərabər tutulan digər iştirak hüququnun) satışı ilə, qumar oyunlarında iştirakla bağlı Qanunu ilə müəyyən edilmiş qaydada keçirilən lotereyalar və ”Bədən tərbiyəsi və idman haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada keçirilən idman mərc oyunları qumar hesab edilmir.

Yəni, qumar oyunu, ”Lotereyalar haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən müştərinin ödəniş tapşırıqlarının və ya bank hesabı üzrə digər əməliyyatların bank əməliyyatları aparan şəxslər tərəfindən icrası qumar deyil”. İkinci hüquqi məsuliyyət Cinayət Məcəllesi ilə yaranır:

”Qumar oyunlarının təşkili və ya keçirilməsi Cinayət Məcəlləsinin 244-1.1-ci maddəsi ilə cinayət məsuliyyətinə səbəb olur. Yəni, qanunvericilik qumar oyunun təşkili və keçirilməsini daha ağır əməl hesab edərək onu daha sərt cəzalandırır, virtual mühitə çıxışın təmin edilməsi, bilet satışı və oyunda iştirak haqqı ilə uduşun ödənilməsi kimi ayrı-ayrı hərəkətləri isə Cinayət Məcəlləsinin tənzimlənmə dairəsindən çıxararaq inzibati cərimə ilə cəzalandırır. Cinayət Məcəlləsinin 244-1.1-ci maddəsinə uyğun olaraq, qumar oyunlarının təşkili və ya keçirilməsi, habelə qumar oyunlarının keçirilməsi üçün yer təşkiletmə və ya saxlama cinayətdir və beş min manatdan on min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır”.

*Ayşən Vəli*


# “SƏS” qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# “Neftçi” 31 yaşlı futbolçu transfer edib...



“Neftçi” heyətini yeni futbolçu ilə gücləndirib. SİA xəbər verir ki, Bakı klubu Monteneqro millisinin və Kosovonun ”Balkani” komandasının yarımmüdafiəçisi Edvin Kutsla anlaşıb. Bu barədə 31 yaşlı oyunçunun özü açıqlama verib. ”Balkani” ilə vidalaşan futbolçu karyerasını ”Neftçi”də davam etdirəcəyini bildirib.

Qeyd edək ki, Edvin Kuts 2023-cü ildən çıxış etdiyi Monteneqro millisində 3 oyuna 3 qol vurub.

# “Peyvəndlərin bəziləri cansız, bəziləri də canlıdır”



“Peyvəndlər insan həyatında xəstəliklərdən qorunmaqda çox mühüm rol oynayır”. Bu sözləri SİA-ya açıqlamasında həkim-infeksionist Vasif Əliyev deyib. O bildirib ki, xüsusilə də, peyvənd infeksion xəstəliklərdən qorunmaqda alternativ bir üsuldur: ”Bu xəstəliklərin profilaktikasında ən etibarlı yol olaraq peyvənddən istifadə olunur. Məsələn, mövsümü qripdən qorunmaq üçün Covid dönəmində tez-tez peyvənddən istifadə edirdik. Eyni zamanda Hepatit B virusuna qarşı Hepatit B peyvəndi, tetanus, difteriya, göy öskürək və digər xəstəliklərə qarşı peyvəndlər var.

Bu peyvəndlər nə zaman vurula bilməz?

Uşaqlıq dönəmindən etibarən peyvəndlər xüsusi qrafik, protokol üzrə vurulur. Bütün dünyada, həm də Azərbaycanda bu qaydada istifadə olunur. O zaman peyvənd vurmaq olmaz ki, daha əvvəl vurulan peyvəndə qarşı allergik reaksiya göstərilsin. O zaman həkim nəzarəti altında yenidən gözdən keçirilməlidir. Bəzi peyvəndlərin tərkibində yumurta istifadə olunur. Bu da yumurta allergiyası olanlarda tətbiq olunur. Daha əvvəl bu xəstəliyi keçirən insanlarda peyvəndi vurmağın bir mənası qalmır. Xəstəliyə qarşı təbii yolla qoruyuculuq yaranıbsa, artıq peyvənd istifadəsi əks göstəriş olmasa belə gərəksiz olur”.

”Peyvəndlərin bəziləri cansız, bəziləri də canlıdır. Canlı peyvəndlər bədən müqaviməti zəif olan insanlarda istifadə olunmaz. Bunlar onkoloji xəstələr, revmotoloji xəstələrdir. Onlar davamlı olaraq müalicə alırlar, artıq yeni bədən müqavimətini artıran dərmanlardan istifadə edirlər. Canlı peyvəndlər müqaviməti zəif olan insanlarda istifadə olunduğu zaman xəstəlik əlamətləri ortaya çıxa bilər. Biz o xəstəni qorumaq yerinə əksinə daha da ağırlaşdıra bilərik.

Ona görə bu insanlarda canlı peyvənd olmaz, amma bəzi hallarda həkim nəzarəti altında müqavimətin vəziyyəti istifadə etdiyi dərmana görə qərar verilərək vurula bilər. Bunlar sadəcə olaraq ehtiyatla həkim nəzarəti altında qərar veriləcək məqamlardır. Ümumi olaraq allergiyası olanlarda və canlı peyvəndlərə müqaviməti zəif olan insanlarda, sadalanan xəstələrdə istifadə olunmaz”- deyə o, əlavə edib.

*Söylü Ağazadə*


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 3200**